QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 196 (5916) **24 oktyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "Heç bir təzyiq, heç bir hədə-qorxu, heç bir təhdid bizim siyasətimizə təsir edə bilməz"

*Prezident İlham Əliyev Mikayıl Cabbarovu yeni vəzifəyə təyin olunması ilə əlaqədar qəbul edib*



Səh 2

5

**Akademik Ramiz Mehdiyev Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti seçilib**



5

**"Azərbaycanın əldə etdiyi iqtisadi inkişafdan hər bir kəs, hər bir ailə fayda görür"**



7

**Elçin Quliyev: "Sərhədçilərimiz torpaqlarımızı azad etməyə hər zaman hazırdır"**



# “Heç bir təzyiq, heç bir hədə-qorxu, heç bir təhdid bizim siyasətimizə təsir edə bilməz”

*Prezident İlham Əliyev Mikayıl Cabbarovu yeni vəzifəyə təyin olunması ilə əlaqədar qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Mikayıl Cabbarovu yeni vəzifəyə - İqtisadiyyat naziri təyin olunması ilə əlaqədar qəbul edib. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev görüşdə bildirib ki, Azərbaycan iqtisadiyyatının bundan sonra qeyri-neft sektoru hesabına inkişafı bizim əsas prioritetimizdir:

-Mən qərara gəldim ki, sizi İqtisadiyyat naziri vəzifəsinə təyin edim. Siz müxtəlif vəzifələrdə, o cümlədən İqtisadiyyat Nazirliyində nazir müavini vəzifəsində çalışmısınız, Təhsil naziri, Vergilər naziri kimi fəaliyyət göstərmisiniz. Xüsusilə sizin Vergilər naziri kimi fəaliyyətinizi qeyd etməliyəm. Aparılan islahatlar nəticəsində vergilər sistemində şəffaflıq təmin edilir, biznes dairələri üçün vahid qaydalar tətbiq olunur.

Azərbaycanda sahibkarlığın inkişafı üçün vergilər stimulverici rol oynayır və nəticələr də göz qabağındadır. Bu il Vergilər Nazirliyi plandan əlavə təqribən 350 milyon manatdan çox vəsait toplayıb və əlbəttə ki, bu, şəffaflığın təzahürüdür. Təbii ki, bu vəsait bizə bu il çox geniş və ciddi sosial paket icra etmək imkanı verdi. Deyə bilərəm ki, bu sosial təşəbbüsün analoqu bu günə qədər olmamışdır. Dörd milyon iki yüz min insan bu sosial təşəbbüsdən faydalanıb, minimum əməkhaqqı təxminən iki dəfə, minimum pensiya 70 faizdən çox artırılıb. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə biz MDB məkanında birinci yerdəyik, amma orta pensiyanın səviyyəsinə görə üçüncü yerdəyik. Yəni, bu, doğrudan da çox böyük sosial təşəbbüsdür. Əlbəttə, əgər bizim maliyyə imkanlarımız olmasaydı, biz bunu edə bilməzdik.

Bütün bunları nəzərə alaraq, mən sizi İqtisadiyyat naziri vəzifəsinə təyin edirəm. Bu, çox məsuliyyətli vəzifədir. Əlbəttə, Azərbaycan iqtisadiyyatının bundan sonra qeyri-neft sektoru hesabına inkişafı bizim əsas prioritetimizdir.

Hələ ulu öndər Heydər Əliyev vaxtilə demişdir ki, iqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir. Bu, tam həqiqətdir və bu gün bizim siyasi müstəqilliyimizin təməlində iqtisadi müstəqillik dayanır. Mən bunu öz çıxışlarımda dəfələrlə demişəm. Əgər bizim iqtisadiyyatımız kənar dairələrdən asılı olsaydı, biz uğurlu siyasi kurs icra edə bilməzdik. Bizim siyasi müstəqilliyimizin, o cümlədən xarici siyasətdə apardığımız prinsipial mövqeyin əsas baza prinsipi iqtisadi müstəqilliyimizdir. Mən Prezident kimi ilk illərdən iqtisadi müstəqilliyə nail olmaq üçün çalışmışam, müvafiq göstərişlər vermişəm. Bu gün Azərbaycan iqtisadi baxımdan, o cümlədən siyasi baxımdan heç kimdən, heç bir ölkədən asılı deyil, prinsipial müstəqil siyasət aparır, o siyasət ki, Azərbaycan xalqının maraqlarını təmin edir. Azərbaycan xalqının maraqlarını, dövlət maraqlarını bütün beynəlxalq tribunalardan müdafiə etmək üçün əlbəttə ki, bizim iqtisadi imkanımız olmalıdır.

Biz indi dünyada gedən proseslərə diqqətlə baxırıq və görürük ki, hansı ölkələr iqtisadi cəhətdən başqa ölkələrdən, yaxud da beynəlxalq maliyyə qurumlarından asılıdırsa, o ölkələr müstəqil siyasət apara bilməz, o ölkələr bir növ böyük ölkələrin girovuna, alətinə çevrilir. O ölkələrin hökumətlərini bəzi hallarda öz xalqına, öz milli maraqlarına görə istifadə etmək üçün onlara təzyiq edilir və onlar bu təzyiqə davam gətirə bilmir. Bizə də təzyiq göstərilir və mənim Prezident kimi fəaliyyətimin bütün dövrlərində göstərilən təzyiqlə üzləşmişik. Ancaq buna davam gətirə bilmişik, müqavimət göstərmişik, öz sözümüzü demişik və heç bir təzyiq, heç bir hədə-qorxu, heç bir təhdid bizim siyasətimizə təsir edə bilməz. Nə üçün? İlk növbədə, biz xalqın dəstəyinə arxalanırıq. Son müddət ərzində keçirilən rəy sorğuları göstərir ki, bizim hökumətimizə ictimai dəstək nə qədər yüksəkdir. O cümlədən Davos Ümumdünya İqtisadi Forumunun son hesabatında, - mən bunu səsləndirdim, - hakimiyyətə olan inam baxımından biz dünya miqyasında ön sıralardayıq. Ona görə iqtisadi müstəqillik bizim üçün əsas vəzifə olaraq qalır. Buna nail olmaq üçün biz gələcək illərdə çox böyük səylər göstərməliyik.

Bizim iqtisadiyyatımızın əsas hissəsini neft-qaz sektoru təşkil edir. Bu, təbiidir. Bu, demək olar ki, neft-qazla zəngin olan bütün ölkələrdə müşahidə edilən mənzərədir və bu, faktdır. Bəzi hallarda bunu mənfi amil kimi yozurlar. Mən bunu mənfi amil kimi qəbul edə bilmərəm, çünki məhz neft-qaz sektorunun inkişafı hesabına biz böyük infrastruktur layihələri icra etmişik, neft-qaz sektorunun gəlirləri hesabına biz 300 mindən çox köçkünü yerləşdirmişik, biz ordumuzu gücləndirmişik, biz böyük sosial layihələri icra etmişik. Əgər bizdə neft-qaz sektoru olmasaydı, yaxud da ki, bu sektoru inkişaf etdirməsəydik, biz nəyin hesabına inkişaf edəcəkdik? Guya kimsə bizə gəlib arxamı duracaqdı? Hansısa ölkə, yaxud da ki, beynəlxalq maliyyə qurumu bizə kömək göstərəcəkdi?

Biz o illəri yaxşı xatırlayırıq, mən yaxşı xatırlayıram. 1990-cı illərdə bizim pulumuz yox idi və biz beynəlxalq maliyyə qurumlarından, böyük dövlətlərdən bir növ asılı idik. Onlar da bəzi hallarda bizə diktə etməyə çalışırdılar. Ona görə iqtisadi müstəqillik mənim siyasətimin ana xəttini təşkil edir. Bu, bizə güc verir, inam verir, xalqımız təhlükəsizlik şəraitində yaşayır və biz ölkə üçün vacib olan bütün layihələri icra edirik. İndiki dövrü mən şərti olaraq postneft dövrü adlandırardım. Ona görə yox ki, bizim neftimiz tükənir, əksinə, bizim ehtiyatlarımız kifayət qədər yüksəkdir, o cümlədən qaz ehtiyatlarımız 2,6 trilyon kubmetrə bərabərdir. Yeni kontraktlar imzalanıb, kəşfiyyat işləri aparılır və neft-qaz sektorumuz bundan sonra da ölkəmizin həyatında önəmli rol oynayacaq. Ona görə mən indiki dövrü postneft-qaz dövrü adlandırıram ki, bizim siyasətimizdə bu sahə kənara qoyulmalıdır. Bu sahədə nə lazım idisə gördük, həm Bakı-Tbilisi-Ceyhan neft, həm Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Cənub Qaz Dəhlizi tarixi layihələrdir. Bunları biz görmüşük. İndi bu layihələrin faydasını biz və gələcək nəsillər görəcəklər. Ancaq biz iqtisadi inkişafımızı qeyri-neft sektoru üzərində qurmalıyıq və burada əlbəttə ki, aparıcı rol İqtisadiyyat Nazirliyinin üzərinə düşür. Əminəm ki, İqtisadiyyat naziri kimi siz bu tapşırıqları yerinə yetirəcəksiniz.

Bizim iqtisadiyyatımız dayanıqlı olmalıdır. İndiki iqtisadi artım templəri məni qane etmir. Düzdür, bunun obyektiv səbəbləri var. Hazırda neftin hasilatının bir qədər aşağı düşməsi nəticəsində ümumi daxili məhsulda müəyyən dərəcədə yavaşıma var. Ancaq doqquz ayda ümumi daxili məhsul 2,5 faiz artıb, amma qeyri-neft sektorunda 3,5 faiz. Hesab edirəm ki, bu, pis göstərici deyil. Ancaq bizi qane etmir. Düzdür, kənd təsərrüfatı 7 faizdən çox, qeyri-neft sənayesi 15 faizdən çox artıb. Bu, çox müsbət hallardır. Ancaq biz elə etməliyik ki, bu inkişaf dayanıqlı olsun. Buna nail olmaq üçün bundan sonra da çox ciddi islahatlar aparılmalıdır.

İslahatlara alternativ yoxdur. Mən yeni iqtisadi model haqqında öz andiçmə mərasimimdə fikirlərimi ifadə etmişəm. Əsas konturlar o vaxt müəyyən olunub. Ondan sonra aparılan islahatlar, o cümlədən kadr islahatları bu məqsədi güdür. Kadr islahatları labüddür, bu, qaçılmazdır. Çünki mən bunu demişəm, biz XXI əsrdə köhnə təfəkkürlə uğurlara imza ata bilmərik. Əlbəttə, yeni, savadlı, bilikli, müasir kadrlar, ilk növbədə, Vətənə bağlı olmalıdırlar, hər hansı bir xarici təsirdən azad olmalıdırlar və vətənpərvər olmalıdırlar ki, Vətənin inkişafı üçün öz səylərini göstərə bilsinlər.

Əsas vəzifələr bundan ibarətdir. Deyə bilərəm ki, islahatlar yaxşı nəticələr verir. Bu ilin doqquz ayında 100 mindən çox əmək müqaviləsi qeydiyyata alındı. Yəni, bu, nə deməkdir? Yəni, bu yüz min insan kölgə iqtisadiyyatında fəaliyyət göstərirdi. Onlar zərflərdə maaş alırdılar. Bəzi hallarda onlara yazılan aşağı maaş reallığı əks etdirmirdi. Bu, bizim iqtisadiyyatımızı təhlükə altına qoyur. Bir də ki, bu insanlar gələcəkdə pensiyaya çıxacaqlar. Bəs onların pensiya haqqı nəyin hesabına hesablanacaq? Ona görə mən, o cümlədən muzdla işləyən vətəndaşlara da üz tutub deyirəm: bu işlərə baş qoşmayın. Əgər hansısa sahibkar sizə tutaq ki, 500 manat maaş verirsə və onun 250 manatını rəsmi qaydada verirsə, siz buna razı olmayın. Çünki sabah pensiya almayacaqsınız. Sosial sığorta problemi olacaq. Biz indi icbari tibbi sığortaya keçirik. Orada da problem yaranacaq. Əlbəttə ki, burada nəzarət daha güclü olmalıdır. Hesab edirəm ki, 100 mindən çox iş yerinin rəsmiləşdirilməsi ilə bu iş yerlərini, o cümlədən o sahibkarların fəaliyyətini biz kölgədən çıxarırıq. Bu iş yerlərinin 80 faizi qeyri-neft sektorunda qeydiyyata alınıb. Hələ ki, ən azı on minlərlə insan indi demək olar ki, bir növ kölgə iqtisadiyyatında fəaliyyət göstərir.

Ona görə bu sahə çox ciddi diqqət tələb edir, çox ciddi addımlar atılmalıdır. Əminəm ki, İqtisadiyyat Nazirliyi bu məsələnin öhdəsindən gələcək. Ümumiyyətlə, bizim iqtisadi inkişafımız bundan sonra da qeyri-neft sektoru hesabına davam etdirilməlidir. Buna nail olmaq üçün son illər böyük işlər görülüb, sənaye zonaları yaradılıb, orada xüsusi vergi rejimi tətbiq olunur. Aqroparklar yaradılıb və orada da məhsuldarlıq daha yüksəkdir. Ancaq bütün bu işləri biz, ilk növbədə, biznesin inkişafı prizmasından həll etməliyik. Biz çox yaxşı bilirik ki, inkişaf etmiş ölkələrdə ümumi daxili məhsulda əsas rolu kiçik və orta sahibkarlar oynayır. Bizdə isə hələ ki, belə deyil. Biz də çalışmalıyıq elə bir şərait yaradaq ki, hər bir istedadlı insan, biznesə meyli, həvəsi olan hər bir insan bizneslə məşğul ola bilsin, məmur təzyiqindən, müdaxiləsindən azad olsun. Sahibkarlara yönəlmiş o çirkin əllər gərək kəsilsin. Bəzi hallarda dövlət məmurları, yerli icra orqanlarının rəhbərləri, nümayəndələri imkan vermirlər, xüsusilə bölgələrdə. Əgər indi kimsə özü üçün bir balaca iş qurursa, gəlib zəli kimi onun bədənindən yapışırlar, qanını sorurlar. Belə adamlara qarşı çox ciddi tədbirlər görüləcəkdir. Hüquq-mühafizə orqanları artıq məndən çox ciddi tapşırıq alıblar və siz nazir kimi çalışmalısınız ki, belə hallara yol verilməsin, əgər yol verilərsə, dərhal məni məlumatlandırın. Belə yaramaz məmurlara qarşı ən ciddi sanksiyalar və tədbirlər görüləcəkdir. Ona görə biz sahibkarlara nəfəs verməliyik ki, onlar rahat işləsinlər. Vergidən başqa heç bir ödəniş ola bilməz.

Eyni zamanda, haqsız rəqabət, bu da bizim üçün böyük yaradır. Buna təkan verən dövlət məmurlarıdır, hansıların ki, biznes maraqları var. Onlar öz imkanlarından istifadə edərək rəqibləri sıradan çıxarırlar, bəzi hallarda şərləyirlər. Elə şərait yaradırlar ki, onlar məcbur olub ya bizneslərini satsınlar, ya da ki, çıxıb getsinlər. Buna da yol vermək olmaz, heç kimdən çəkinmədən. Mən bilirəm, sizə nazir kimi, xüsusilə Vergilər naziri kimi, bəziləri təzyiqlər göstərməyə çalışırdılar ki, bizim biznesimizə dəymə. Mən bilirəm ki, siz onların qarşısında çox mətanətlə çıxış etmisiniz. Mən bunu həmişə dəstəkləmişəm və sizə həmişə dəstək olmuşam. Demişəm ki, heç kimə baxmadan bütün işlər ən yüksək səviyyədə görülməlidir. Heç kim heç bir imtiyaza sahib ola bilməz. Bir imtiyaz var: vergini vermək, Vətənə ləyaqətlə xidmət etmək və pozuntulara yol verməmək.

Ona görə sizin qarşınızda çox böyük vəzifələr dayanır. Ölkə iqtisadiyyatının dayanıqlı inkişafı bizim üçün hazırda əsas prioritet məsələdir. Dediyim kimi, bu, imkan verəcək ki, biz sosial sahəyə daha böyük vəsait ayıraq.

Nazir Mikayıl Cabbarov: möhtərəm cənab Prezident, Sizə dərin təşəkkürümü bildirirəm. İlk növbədə, göstərdiyiniz etimada görə təşəkkür edirəm. Məsuliyyətimi tam şəkildə dərk edirəm. Sizin rəhbərliyinizlə indiyə qədər gördüyümüz işlərdə əldə etdiyimiz nailiyyətlər Sizin dəstəyinizin, həmkarlarımın gərgin işinin nəticəsidir. Olan çatışmazlıqlar isə mənim üzərimə düşən məsuliyyətdir.

Fəaliyyətimizə verdiyiniz qiymət mənim üçün ən böyük şərəfdir. Sizin rəhbərliyinizlə, həmkar nazirlik və dövlət təsisatlarımızla birlikdə biz ölkəmizin dayanıqlı və davamlı inkişafının, iqtisadi inkişafının təmin edilməsi üçün Sizin tapşırdığınız prinsiplər əsas götürülməklə fəaliyyət göstərəcəyik. Söz verirəm ki, bu məqsədlər üçün səylərimi əsirgəməyəcəyəm.

İqtisadiyyatımızın rəqabətliliyini daim artırmağı, iqtisadi müstəqilliyimizi daim möhkəmləndirməyi, iqtisadiyyatı inkişaf etdirməyi əsas vəzifəm kimi qəbul edirəm. İnanıram ki, iqtisadiyyatı inkişaf etdirmək dövlət və vətəndaşların gəlirlərinin və imkanlarının artırılmasının yeganə yoludur. Sizin kimi siyasi liderin, möhtərəm cənab Prezident, hökumətində yer tutmaq mənim üçün ən böyük şərəfdir. Bir daha yüksək etimadınıza görə Sizə dərin təşəkkürümü bildirmək istəyirəm.

Prezident İlham Əliyev: Sağ olun. Sizə uğurlar arzulayıram. Əminəm ki, nəticələr yaxşı olacaq.

# “Ölkəmizin uğurlu, hərtərəfli inkişafında sizin çox böyük və danılmaz rolunuz var”

## *Prezident İlham Əliyev Ramiz Mehdiyevi qəbul edib və ona “Heydər Əliyev” ordenini təqdim edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Ramiz Mehdiyevi qəbul edib və ona “Heydər Əliyev” ordenini təqdim edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev dedi:

-Hörmətli Ramiz müəllim, siz uzun illərdir ki, müxtəlif məsul vəzifələrdə işləyirsiniz. Həm sovet dönəmində, həm müstəqillik dövründə ölkəmizin inkişafına böyük töhfələr vermisiniz. Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyev sizi hələ gənc yaşlarınızda önəmli vəzifələrə təyin etmişdir. Siz yaxşı bilirsiniz ki, Heydər Əliyev kadrların seçilməsində çox tələbkar idi və onun bir sıra çox ciddi meyarları vardı. Sizi gənc yaşlarında önəmli vəzifələrə təyin etmək onu göstərirdi ki, siz buna layiq idiniz. Siz gənc, istedadlı kadr kimi Ulu Öndərin rəhbərliyi ilə həm sovet dönəmində, həm də müstəqillik dövründə işləmisiniz. Xatırlayıram ki, sovet dövründə, 1970-ci illərdə siz Bakımızın əsas rayonu olan, o vaxt 26 Bakı Komissarı adlandırılan, indiki Səbail rayonunun birinci katibi təyin olunmusunuz və bu vəzifədə böyük uğurlar əldə etmisiniz. Ondan sonra Ulu Öndər sizi Mərkəzi Komitəyə dəvət etmişdir və siz təşkilat şöbəsinin rəhbəri idiniz. Bu, Mərkəzi Komitənin bəlkə də ən aparıcı şöbəsi idi. Çünki bu şöbədə kadr hazırlığı məsələləri diqqət mərkəzində idi. Heydər Əliyev Moskvada, Siyasi Büroda işə başlayanda bilirsiniz ki, onun tövsiyəsi ilə siz Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ideologiya üzrə katibi vəzifəsinə təyin olunmusunuz. Bu da çox önəmli vəzifə idi, yəni, ideoloji işlərə rəhbərlik edirdiniz. Təbii ki, ulu öndər Heydər Əliyev əsassız olaraq bütün vəzifələrdən çıxarılandan sonra sizi də vəzifədən azad etmişdilər və yalnız Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıdandan sonra o, yenə də sizi dəvət etdi. Bu, böyük bir inamın təzahürü idi. Çünki siz də yaxşı bilirsiniz, mən də yaxşı bilirəm ki, o vaxt Heydər Əliyevin yetişdirdiyi, böyük vəzifələr verdiyi bir çox kadrlar ona sadiq çıxmadılar və o, 1993-cü ildə hakimiyyətə qayıdandan sonra həmin kadrlara etibar etmədi. Bir halda ki, sizi dərhal vəzifəyə təyin edib, onu göstərir ki, o, həm sizə inanırdı, eyni zamanda, xalqımız üçün həmin ağır illərdə siz Ulu Öndərə öz sədaqətinizi saxlamısınız və onun rəhbərliyi altında işlədiyiniz dövr ərzində bunu sübut etmisiniz. Heydər Əliyev tərəfindən Prezident Administrasiyasının rəhbəri vəzifəsinə təyin olunmusunuz və bu çox önəmli və məsul işdə böyük nailiyyətlər əldə etmisiniz. Son 16 il ərzində isə biz birlikdə işləyirik. Demək olar ki, hər gün əlaqədəyik, gündə bir neçə dəfə təmasdayıq. Ölkəmizin uğurlu, hərtərəfli inkişafında sizin çox böyük və danılmaz rolunuz var. Mənim sizə böyük hörmətim var. Siz həmişə dövlətçiliyi hər şeydən üstün tutmusunuz və bu gün Azərbaycan dövləti inkişaf edir, qarşıda duran bütün vəzifələr icra olunur. Bu vəzifələrin icrasında sizin böyük rolunuz vardır.





Ancaq həyat yerində durmur, artıq yaşınız səksəni keçib və siz də həmişə deyirdiniz ki, biz gərək gəncləri irəli çəkək, gənclərə yol verək, onlar da yetişsinlər ki, bizim inkişafımız uzunmüddətli olsun. Gənclər elə yetişməlidir ki, gələcəkdə onlar ölkəmizi layiqincə idarə edə bilsinlər. Gənclər milli ruhda tərbiyə olunmalıdır. İndi siz də yaxşı bilirsiniz, bu qloballaşma adı altında demək olar ki, bəzi ölkələrin, xalqların milli mənliyi elə bil, silinmək təhlükəsi ilə üzləşib. Qloballaşma adı altında eyniləşmə gedir, bəzi xalqlara yad olan dəyərlər aşılanır və biz buna müqavimət göstəririk. Biz elə gənclər yetişdirməliyik ki, onlar Vətənə, xalqa bağlı olsunlar, müstəqilliyi hər şeydən üstün tutsunlar. Ona görə də gənc kadrların qabağa çəkilməsi onlara imkan verir ki, həm təcrübə toplasınlar, həm də artıq yaşlı kadrlar öz məsləhətlərini verməklə onları düzgün yola istiqamətləndirirlər.

Mən bilirəm ki, siz elmi işlərlə də fəal məşğulsunuz, bir çox böyük elmi əsərlərin müəllifisiniz. Bilirəm, sizin də istəyiniz ondan ibarətdir ki, bundan sonra elmi işlərlə məşğul olasınız. Sizin çox böyük potensialınız var və müəllifi olduğunuz kitablar çox böyük diqqətə və qiymətə layiqdir.

Xalq, dövlət qarşısında göstərdiyiniz xidmətlərə görə mən sizi bu gün dövlətimizin ən ali mükafatı olan “Heydər Əliyev” ordeni ilə təltif edirəm. Siz bilirsiniz ki, bu orden bir çox hallarda xarici dövlət və hökumət başçılarına verilir, hər kəsə yox. Bu orden doğrudan da xalqımızın, dövlətimizin dostlarına, ikitərəfli əlaqələrin inkişafında xüsusi rol oynamış dövlət və hökumət başçılarına, ziyalılara, incəsənət xadimlərinə verilir. Ona görə bu ordenin sizə verilməsi əlbəttə ki, xüsusi məna daşıyır, siz buna layiqsiniz. İlk növbədə, ona görə ki, uzun illər ərzində ulu öndər Heydər Əliyevə və dövlətə sədaqətlə xidmət etmisiniz. Ulu Öndərin adını daşıyan bu orden sizə bütün əsaslar olmaq şərtilə verilir. Əminəm ki, siz gələcək fəaliyyətinizdə də ümumi işimizə dəyərli töhfələr verəcəksiniz. İndi isə icazə verin bu ordeni sizə təqdim edim.

Prezident İlham Əliyev “Heydər Əliyev” ordenini Ramiz Mehdiyevə təqdim etdi.

Ramiz Mehdiyev dedi:

-Hörmətli cənab Prezident.

Sizə xüsusi təşəkkür edirəm ki, məni dövlətimizin ən yüksək mükafatı olan “Heydər Əliyev” ordeni ilə təltif etdiniz. Heydər Əliyev Azərbaycan tarixində yaşayıb-yaratmış görkəmli ictimai və siyasi xadimlər sırasında Ümummilli Lider səviyyəsinə yüksəlmiş yeganə şəxsiyyətdir. Onun adına təsis olunmuş bu ali ordenlə təltif olunmaq hər bir dövlət qulluqçusunun, hər bir ictimai və siyasi xadimin arzu etdiyi ali mükafatdır. Bu tarixi məqamı mənə yaşatdığınıza görə bir daha Sizə minnətdarlığımı bildirir, Azərbaycanın inkişafında bundan sonra da yeni nailiyyətlər və uğurlar arzulayıram. Müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu olmuş, xalqımızın qəlbində əbədi məskən salmış Ulu Öndərin xatirəsi saydığım bu ali mükafat mənim həyatda nail olduğum və qazandığım ən böyük mükafatdır. Buna görə Sizə, cənab Prezident, bir daha öz dərin təşəkkürümü bildirirəm.

Sizə məlum olduğu kimi, cənab Prezident, həyatımın əlli dörd ilini dövlət qulluğunda keçirmişəm. Onun 29 ilini ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında yaşamışam. Son 16 ildə isə bilavasitə Sizin rəhbərliyiniz altında çalışmışam. Həyata keçirdiyiniz siyasi-iqtisadi, sosial-mədəni kursun böyük uğurlu nəticələr verdiyinin bilavasitə şahidi olmuşam. Sizin silahdaşınız olaraq çalışmışam ki, tapşırıqlarınızı vaxt itirmədən icra edim. Deyə bilərəm ki, Sizin, cənab Prezident, nadir siyasi şəxsiyyət və görkəmli dövlət rəhbəri kimi fəaliyyətinizi və qiymətinizi gördüyünüz işlər müəyyən edir. Mərd və genişürəkli xalqımız buna böyük qiymət verir.

Son 16 il ərzində Azərbaycan Sizin rəhbərliyinizlə modernləşərək yeni bir keyfiyyət mərhələsinə qədəm qoydu. Ölkənin siyasi, iqtisadi, mədəni həyatı yeniləşərək kökündən dəyişdi. Bu da Azərbaycan xalqının həyat səviyyəsini yüksəltdi, onun problemlərinin böyük qismini həll etdi və dövlətlə xalqı vahid bir platformada birləşdirdi.

Sizin nümayiş etdirdiyiniz praqmatizm, çevik və ağıllı dövlət siyasəti, sistemli və ardıcıl yanaşma ölkəmizin milli maraqlarının təmin olunmasında önəmli rol oynamış və onun müasir inkişafını təmin etmişdir.

Dövlətin idarə olunmasında, milli maraqların qorunmasında nümayiş etdirdiyiniz uzaqgörənlik, prinsipiallıq, daxili siyasətdə təlqin etdiyiniz yüksək idarəçilik, ciddi və humanist yanaşma bir siyasətçi olaraq Sizin həm siyasətinizi, həm də şəxsiyyətinizi xarakterizə edən ali keyfiyyətlərdir. Biz dünya tarixində öz dəstxəti ilə dərin iz buraxmış məşhur dövlət başçılarının simasında müşahidə etdiyimiz bütün əsas və ən yüksək keyfiyyətləri bu 16 il müddətində, möhtərəm cənab Prezident, Sizdə müşahidə etmişik. Tarix elə gətirdi ki, üçüncü minilliyin başlanğıcında Heydər Əliyevin qurduğu müstəqil Azərbaycan dövlətini idarə etmək və gələcəyə aparmaq Sizə nəsib oldu.

Azərbaycanı modernləşdirmək, XXI əsrin çağırışlarının tələblərini nəzərə alaraq, xalqımızı öz ətrafınızda birləşdirmək, dövlətimizi yeni inkişaf mərhələsinə qovuşdurmaq missiyası məhz Sizə nəsib oldu. Bu gün heç kim inkar edə bilməz ki, cənab Prezident, Siz bu ali və tarixi missiyanın öhdəsindən layiqincə gəldiniz. Əgər Ümummilli Lider müstəqil Azərbaycan dövlətinin banisi kimi öz adını tarixə yazdırdısa, Siz müasir və inkişaf etmiş Azərbaycan dövlətinin qurucusu olaraq tarixə düşdünüz.

Böyük dövlət təşkilatçısı olaraq, Siz xalqımızın daxili enerjisini ölkəmizin qarşısında duran vəzifələrin həlli üçün bacarıqla səfərbər edirsiniz. Bu gün Azərbaycan Sizin səylərinizlə inkişaf etmiş ölkələrin siyahısına daxil olubdur.

Çoxşaxəli və uğurlu siyasi fəaliyyətinizin nəticəsi olaraq, Sizin beynəlxalq sahədə çox böyük nüfuzunuz var. Bunu böyük dövlət başçıları qeyd edir, xarici mətbuat və nüfuzlu beynəlxalq qurumların rəhbərləri bildirirlər, Sizi islahatçı Prezident adlandırırlar.

Son 100 ildə ulu öndər Heydər Əliyevlə birlikdə Siz Azərbaycan tarixinə düşmüş ən görkəmli siyasi lider sayılırsınız. Azərbaycan vətəndaşları böyük qürur hissi keçirirlər ki, xalqımızın belə siyasi rəhbəri ilə bir dövrdə yaşayırlar.

Siz müstəqil Azərbaycanın dövlət qulluğu sisteminin yeni bir sivil ənənəsini yaratdınız. Bu gün bütün Azərbaycan cəmiyyəti uzun müddət Azərbaycan dövlətçiliyinə xidmət göstərmiş, dövlət qulluğu sistemində məsuliyyətlə və sədaqətlə çalışmış yüksək vəzifəli şəxslərin ölkə Prezidenti tərəfindən hansı hörmət və izzətlə yola salınması prosedurundan danışır. İnanıram ki, bu ənənə gələcəkdə də dövlət-cəmiyyət münasibətlərində öz xoş izlərini buraxacaq.

**Ardı Səh. 4**

# “Ölkəmizin uğurlu, hərtərəfli inkişafında sizin çox böyük və danılmaz rolunuz var”

## Prezident İlham Əliyev Ramiz Mehdiyevi qəbul edib və ona “Heydər Əliyev” ordenini təqdim edib

**Əvvəli-Səh-3**

Bu ənənə vəzifəyə təyin olunan insanlar üçün hansı xoş əhval-ruhiyyəni bəxş edirsə, vəzifəsini başa vurub təqaüdə gedən insanlar üçün də eyni xoş ovqatı aşılayacaqdır. Bu ənənəni yaratdığınız üçün, cənab Prezident, Siz böyük şəxsiyyət kimi bir daha ucaldınız.

Fürsətdən istifadə edib mənim ünvanıma səsləndirdiyiniz bütün xoş sözlərə görə Sizə dərin təşəkkürümü bildirirəm. Sizi əmin etməyi özümə borc bilirəm ki, mən Heydər Əliyevlə və onun davamçısı kimi şəxsən Sizinlə birlikdə çalışmağı həmişə özümə şərəf saymışam. Bu xidmətin məsuliyyətini həmişə dərindən dərk etmişəm. Çalışmışam ki, mənim rəhbərlik etdiyim sahələrdə bütün işlər yürüdülən siyasətə uyğun olsun. Mənim fəaliyyətimdə dövlətçilik prinsipi bütün dövrlərdə ümdə olub. Hesab edirəm ki, harada işləməyimdən asılı olmayaraq, hər an məsuliyyət hissini gözləmişəm, ciddi, tələbkar və təvazökar olmağa çalışmışam. Əlbəttə, hər bir digər məmur kimi, mənim də görə biləcəyim işlərin həddi var və indiyə qədər nəyə nail ola bilmişəmsə, o haqda Siz artıq öz fikirlərinizi bildirdiniz.

Sizi əmin etmək istəyirəm ki, möhtərəm cənab Prezident, bundan sonrakı həyatımda və fəaliyyətimdə də mən həmişə Ümummilli Liderin siyasətini, Sizin həyata keçirdiyiniz siyasi kursu rəhbər tutaraq əlimdən gələni əsirgəməyəcəyəm. Sizin həyata keçirdiyiniz siyasət Azərbaycan dövlətinin inkişafına və xalqımızın firavan, təhlükəsiz həyatının qurulmasına xidmət göstərir. Ona görə də düşünürəm ki, hansı mövqedə fəaliyyət göstərməsindən asılı olmayaraq Vətənini sevən hər bir azərbaycanlı bu kursu dəstəkləməlidir, Sizin ətrafınızda olmalıdır və dövlətçiliyə xidmət göstərməlidir. Siz Azərbaycan xalqının, dövlətinin şərəfli Prezidentisiniz. Öz dövlətimizə bütün səylərimizlə xidmət etməliyik və onu qorumalıyıq.

Təşəkkür edirəm.

Prezident İlham Əliyev: Sağ olun Ramiz müəllim. Mən də xoş sözlərə görə təşəkkür edirəm. Bir daha mükafat münasibətilə sizi təbrik edirəm.

Ramiz Mehdiyev: Çox sağ olun, cənab Prezident.

# “Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri dost və tərəfdaş dövlətlərdir”

## Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Xarici İşlər üzrə Dövlət nazirinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Xarici İşlər üzrə Dövlət naziri Ənvər Qarqaşın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, qonaq Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Xəlifə bin Zayed Al Nəhyanın salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. O, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Xəlifə bin Zayed Al Nəhyanın Prezident İlham Əliyevə dərin hörmət və ehtiram bəslədiyini qeyd etdi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın sürətli inkişaf yolu ilə getdiyini deyən qonaq bütün bunlara dövlətimizin başçısının yüksək idarəçilik qabiliyyəti və yorulmaz fəaliyyəti nəticəsində nail olunduğunu diqqətə çatdırdı. O, 120 min nəfər BƏƏ vətəndaşının ölkəmizə turizm məqsədilə səfər etdiyini vurğulayaraq, Azərbaycanın Birləşmiş Ərəb Əmirliklərinin vətəndaşları üçün mühüm turizm məkanlarından birinə çevrildiyini bildirdi.

Dövlətimizin başçısı Azərbaycanın və Birləşmiş Ərəb Əmirliklərinin dost və tərəfdaş dövlətlər olduğunu qeyd etdi. Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirlikləri rəhbərliyinin ölkənin inkişafı istiqamətində böyük baxışa malik olduğunu, şəhər quruculuğu, infrastruktur və digər meyarlar baxımından BƏƏ-nin nümunəvi inkişafa nail olduğunu dedi. Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Xəlifə bin Zayed Al Nəhyanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə çatdırmağı xahiş etdi.

# “Azərbaycan ilə İran arasında dostluq və mehriban qonşuluq münasibətləri mövcuddur”

## Prezident İlham Əliyev İranın Xarici İşlər nazirinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də İran İslam Respublikasının Xarici İşlər naziri Cavad Zərifin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə İran arasında dostluq və mehriban qonşuluq münasibətlərinin olduğunu qeyd edərək, əməkdaşlığımızın mövcud səviyyəsinin məmnunluq doğurduğunu vurğuladı.

Prezident İlham Əliyev ölkələrimiz arasında Şimal-Cənub, Cənub-Qərb nəqliyyat dəhlizləri çərçivəsində əməkdaşlıq üçün böyük imkanların olduğunu bildirdi. Dövlətimizin başçısı Azərbaycan ilə İran arasında iqtisadi-ticari əlaqələrin inkişafında Hökumətlərarası birgə Komissiyanın rolunu qeyd etdi və Komissiyanın eyni tərkibdə bundan sonra da fəaliyyətini davam etdirəcəyini vurğuladı.

İran İslam Respublikasının Xarici İşlər naziri Cavad Zərif Prezident Həsən Ruhaninin səmimi salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı. O, Prezident Həsən Ruhaninin Qoşulmama Hərəkatının ölkəmizdə keçiriləcək XVIII Zirvə görüşündə iştirak etmək üçün yaxın günlərdə Azərbaycana səfər edəcəyini bildirərək səfər çərçivəsində dövlətimizin başçısı ilə görüşünün əlaqələrimizin daha da inkişafına töhfə verəcəyini dedi.

Cavad Zərif Qoşulmama Hərəkatının Bakı Zirvə görüşünün Azərbaycan tərəfindən yüksək səviyyədə təşkil olunacağına əminliyini ifadə etdi və 2019-2022-ci illərdə ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi uğurla aparacağını dedi. Prezident İlham Əliyev İran İslam Respublikası Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarının İran Prezidentinə çatdırılmasını xahiş etdi və Qoşulmama Hərəkatının Bakıda keçiriləcək Zirvə görüşü çərçivəsində Prezident Həsən Ruhani ilə görüşünü məmnuniyyətlə gözlədiyini bildirdi.

# Rəsmi xronika

Prezident İlham Əliyev Ramiz Mehdiyevin Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Ramiz Ənvər oğlu Mehdiyev Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri vəzifəsindən azad edilsin.

* * *

Prezident İlham Əliyev Ramiz Mehdiyevin Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti vəzifəsinə təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan Milli Elmlər Akademiyasının ümumi yığıncağında Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti seçilmiş Ramiz Ənvər oğlu Mehdiyev bu vəzifəyə təsdiq edilsin.

* * *

Prezident İlham Əliyev Lyudmila Duxovnayanın “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycanda teatr sənətinin inkişafındakı xidmətlərinə görə Lyudmila Semyonovna Duxovnaya “Şöhrət” ordeni ilə təltif edilsin.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyul tarixli 779 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının tərkibi”ndə dəyişiklik edilməsi haqqında Fərman imzalayıb. Fərmanda qeyd edilir ki, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyul tarixli 779 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının tərkibi”nə “Azərbaycan Respublikasının daxili işlər naziri;” sözlərindən sonra “Ramiz Ənvər oğlu Mehdiyev;” sözləri əlavə edilsin.

* * *

Prezident İlham Əliyev Mikayıl Cabbarovun Azərbaycan Respublikasının Vergilər naziri vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Mikayıl Cabbarovun Azərbaycan Respublikasının İqtisadiyyat naziri təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən Mikayıl Çingiz oğlu Cabbarov Azərbaycan Respublikasının İqtisadiyyat naziri təyin edilir.

# “Azərbaycanın əldə etdiyi iqtisadi inkişafdan hər bir kəs, hər bir ailə fayda görür”



“Belə çağırışları qəti şəkildə pisləyirəm. Hesab edirəm ki, bu çağırışlar Azərbaycana qarşı bütövlükdə təxribat törətmək niyyətlərindən xəbər verir. Bu çağırışlar ciddi şəkildə konstitusion hüquqların pozulmasıdır, Azərbaycanda konstitusion quruluşa qarşı cəhd göstərilməsi nümunəsidir. Bu çağırışları edənlər digər tərəfdən isə ölkədə qarşıdurma, xaos və anarxiya yaratmaq niyyətlərini ortaya qoymuş olur. Düşünmürəm ki, Azərbaycan cəmiyyətində kimlərsə xaricdə sığınacaq tapmış və hansı maraqlı dairələrə qulluq etdiyi o qədər də bizə məlum olmayan bəzi məsuliyyətsiz insanların bu cür çağırışlarına diqqətlə yanaşır və ya ona əhəmiyyət verir. Bütün bunlara baxmayaraq, mən Azərbaycanda qarşıdurma yaratmağa çağırışları, eyni zamanda polislə, müvafiq hüquq-mühafizə orqanları ilə qarşıdurma yaratmaq çağırışlarını qəti şəkildə pisləyirəm. Azərbaycanın hər bir vətəndaşı ölkəmizdəki sabitliyi, əmin-amanlığı yüksək qiymətləndirir. Bu, Azərbaycan dövlətinin müstəqillik illərində əldə etdiyi ən böyük nemətlərdən biridir. Azərbaycanın hər bir vətəndaşı ölkəmizin həyatının, iqtisadiyyatının böyük dinamika ilə inkişaf etdiyi yüksək qiymətləndirir. Bu inkişafdan hər bir kəs, hər bir ailə fayda görür. Ən böyük fayda isə bayaq dediyim kimi, sabitlik və əmin-amanlıqdır ki, heç də hər bir ölkədə buna nail olmaq mümkün olmur. Ona görə də heç bir Azərbaycan vətəndaşı ölkəmizdəki sabitliyin, əmin-amanlığın pozulmasına razı olmaz və buna imkan verməz”. Bu fikirləri Baş Nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov jurnalistin “19 oktyabr aksiyasından sonra xarici ölkələrdəki bəzi şəxslərin sosial media üzərindən kütləvi iğtişaşlara, terrora çağırışlarına rast gəlinir, habelə ayrı-ayrı polislər hədəf göstərilir. Bu çağırışlarla bağlı nə deyə bilərsiniz?” sualını şərh edərkən səsləndirib.

# Mübariz Qurbanlı: “Dövlət idarəçiliyində islahatlar davamlı olacaq”



“Azərbaycanda geniş sosial-iqtisadi xarakterli islahatlarla bərabər kadr islahatları da həyata keçirilir. Bu islahatlar zamanı çatmış olan məsələlərin həll edilməsidir”. SİA-nın verdiyi məlumata görə, bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib. Onun sözlərinə görə, Prezident İlham Əliyev bu yaxınlarda keçirilən iqtisadi müşavirədə bildirdi ki, bu islahatlar daha da dərinləşdiriləcək, daha gənc kadrların dövlət idarəçiliyinə gətirilməsi istiqamətində addımlar atılacaq: “Bununla əlaqədar olaraq, hazırda vəzifədə olan, Azərbaycan qarşısında, dövlət quruculuğunda, sosial-iqtisadi sahədə xidmətləri olan və müəyyən yaş həddinə çatmış bəzi şəxslər özləri vəzifələrindən azad edilməsi üçün Prezidentə müraciət edirlər. Prezident də onların istefalarını qəbul edir”.

Dövlət idarəçiliyində islahatların davamlı olacağını söyləyən M.Qurbanlı bütün dünya ölkələrində dövlət idarəçiliyində islahatların həyata keçirildiyini söyləyib. Komitə sədri qeyd edib ki, Azərbaycan da müstəqil dövlətdir və bu sahədə islahatlarını davam etdirir.



# Akademik Ramiz Mehdiyev Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti seçilib



Oktyabrın 23-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) ümumi yığıncağında AMEA-nın prezidenti vəzifəsinə seçkilər keçirilib. AZƏRTAC xəbər verir ki, səsvermədə AMEA-nın həqiqi üzvləri iştirak ediblər.

Alternativsiz namizəd olan akademik Ramiz Mehdiyev AMEA-nın prezidenti seçilib. Akademiyanın tarixində ilk dəfədir ki, prezident humanitar-ictimai elmlər sahəsindən seçilir.

# YAP Səbail rayon təşkilatında bələdiyyə seçkilərinə hazırlıq işləri müzakirə edilib



***Oktyabrın 23-də Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatının idarə heyətinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev gündəlikdə duran məsələlər haqqında məlumat verib.***

Sonuncu iclasdan ötən müddətdə ölkəmizin ictimai-siyasi həyatında baş verən yeniliklərdən, Azərbaycanın əldə etdiyi nailiyyətlərdən danışan Ş.Hacıyev dövlətimizin başçısının “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının sessiyasındakı tarixi çıxışı zamanı səsləndirdiyi “Qarabağ - tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi” fikrinin artıq bir şüara çevrildiyini və istər cəmiyyətin, istərsə də hər bir azərbaycanlının qarşısında mühüm vəzifələr qoyduğunu vurğulayıb. Təşkilatın sədri Azərbaycan Prezidenti İlham Əliyevin yanında iqtisadi müşavirədə ölkəmizin sosial-iqtisadi inkişafı ilə bağlı dövlətimizin başçısının proqram xarakterli çıxışının əhəmiyyətini diqqətə çatdırıb. Qeyd olunub ki, həmin müşavirədə dövlətimizin başçısı ölkəmizin bütün sahələrdə inkişafı ilə bağlı yeni hədəflər müəyyənləşdirib. Artıq bu istiqamətdə mühüm islahatların həyata keçirilməsinə başlanıb və ardıcıl qətiyyətli addımlar atılır.

Ş.Hacıyev partiyanın hər bir üzvünün ölkəmizin siyasi həyatında mühüm hadisələrdən olan bələdiyyə seçkiləri ilə bağlı yüksək fəallıq nümayiş etdirmələrinin vacibliyini vurğulayıb. Bildirib ki, YAP Səbail rayon təşkilatı da bu mühüm prosesdə fəal iştirak etməlidir.

İclasda bələdiyyə seçkiləri ilə əlaqədar YAP Səbail rayon təşkilatının səlahiyyətli nümayəndələri təsdiqlənib və yaradılmış qərargahın üzvlərinin vəzifələri diqqətə çatdırılıb. Sonra mövzu ətrafında müzakirələr aparılıb və bələdiyyə seçkiləri ilə əlaqədar ərazi ilk partiya təşkilatlarının da yüksək fəallıq göstərmələrinin vacibliyi vurğulanıb.

səs
www.sesqazeti.az
facebook Ses Media Holding
24 oktyabr 2019-cu il

# Bakıda Qoşulmama Hərəkatının Nazirlər Görüşü keçirilib

***Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Toplantısı çərçivəsində oktyabrın 23-də Bakıda nazirlərin hazırlıq görüşü keçirilib. AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov XVIII Bakı Sammitinin Qoşulmama Hərəkatının daha bir uğur hekayəsi olacağına inam yaratdığını bildirib.***




Nazir qeyd edib ki, Birləşmiş Millətlər Təşkilatından sonra ikinci ən böyük beynəlxalq siyasi təşkilat olaraq Qoşulmama Hərəkatı siyasi məsləhətləşmələr və praktik əməkdaşlığı üçün geniş və əhatəli bir platformanı təmin edir. Tarixboyu Qoşulmama Hərəkatı beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmlənməsində əsas rol oynayıb. Soyuq müharibənin sonu Hərəkatımızın beynəlxalq münasibətlər sistemindəki rolunu azaltmayıb, əksinə, artan çağırışlar fonunda əhəmiyyətini artırıb. Bu gün qarşımızda duran əsas vəzifə yarandığı dövrdə olduğu kimi hələ də aktuallığını saxlayan Hərəkatın təməl prinsiplərini təbliğ etmək və dəstəkləməklə mövcud geosiyasi mənzərədəki yeni reallıqlara adekvat olması məqsədilə Hərəkatın rolunu aktivləşdirməkdən ibarət olmalıdır.

Elmar Məmmədyarov qeyd edib ki, Azərbaycan Qoşulmama Hərəkatının sonuncu iştirakçısıdır, çünki o, 2011-ci ilin may ayında Hərəkatın tamhüquqlu üzvü oldu. Cəmi 8 ildə Qoşulmama Hərəkatının tam etimadını qazanaraq ona sədrlik etmək imkanını əldə etdik. Azərbaycan müstəqil xarici siyasət yürüdür və heç bir hərbi ittifaqın üzvü deyil. Eyni zamanda, biz sürətlə inkişaf edən ölkəyik, davamlı inkişafa, demokratikləşməyə, insan hüquqlarına və sosial ədalətə hörməti artırmağa xüsusi əhəmiyyət veririk.

"Sədrliyimiz dövründə ən çox diqqət edəcəyimiz prioritet sahələrdən biri də gənclərin səlahiyyətlərinin artırılmasıdır. Uğurlu gənclər siyasəti cəmiyyətin davamlı inkişafının təmin olunmasında mühüm rol oynayır. Qoşulmama Hərəkatının Zirvə Toplantısı və Nazirlər Görüşü nəticəsində qəbul olunacaq sənədlər gənclərin dövlət idarəçiliyində iştirakının artırılması, onların sosial, təhsil və məşğulluq problemlərinin həlli, habelə Davamlı İnkişaf üzrə 2030 Gündəliyinin hədəflərinə çatmaqda gənclərin daha fəal iştirakı kimi gənclər siyasətinin müxtəlif aspektlərini əhatə edəcək. Bu sənədlərdə qarşıya qoyulan məqsədlərin həyata keçirilməsi üçün əməli tədbir olaraq Azərbaycan ilk dəfə Qoşulmama Hərəkatının Gənclər Sammitinin Bakıda keçirilməsi təşəbbüsü ilə çıxış edib. Gənclər Zirvəsi Qoşulmama Hərəkatına üzv dövlətlərdən 40 görkəmli gənci bir araya gətirəcək. İki gün davam edəcək müzakirələrin nəticəsi olaraq, onlar Qoşulmama Hərəkatının Dövlət və Hökumət başçılarının XVIII Zirvə Görüşünə tövsiyələr verəcəklər. Əminik ki, Gənclər Zirvəsi nəticəsində qurulacaq, qeyri-hökumət təşəbbüsü olan Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsi Qoşulmama Hərəkatının bütün fəaliyyətinə gənclərin dəyərli dəstəyini verəcək", - deyə E.Məmmədyarov qeyd edib.

Nazir bildirib ki, Qoşulmama Hərəkatına üzv ölkələrin əksəriyyəti inkişaf etməkdə olan ölkələr olduğundan Hərəkat daxilində iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi son dərəcə vacibdir. Bundan əlavə, enerji təhlükəsizliyi, ətraf mühit, səhiyyə, əmək kimi sahələrdə əməkdaşlığın təşviqi və bu məqsədlə Qoşulmama Hərəkatına üzv dövlətlərin maraqlarının BMT çərçivəsində təşviqi böyük əhəmiyyət kəsb edir.

Qeyd olunub ki, Azərbaycan Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri kimi regional iqtisadi layihələrdə və təşəbbüslərdə fəal iştirak edir və hazırda Cənub-Qərb nəqliyyat dəhlizi layihəsi üzərində işləyir. Qoşulmama Hərəkatına üzv ölkələrin bir çoxunun bu üç dəhliz boyunca coğrafi yerləşməsi Hərəkat üzvləri arasında qarşılıqlı faydalı əməkdaşlığın daha da inkişafına kömək edə bilər.

Vurğulanıb ki, Azərbaycan dünya mədəniyyətlərarası və dinlərarası dialoq mərkəzlərindən biri hesab olunur. Bu sahədə zəngin və ən yaxşı təcrübəsi ilə Azərbaycan Hərəkatımızın prioritet istiqamətlərindən olan mədəni müxtəlifliyin qorunması və təşviqi istiqamətində səylərini davam etdirməkdə qərarlıdır.

Çıxışında nazir Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə də toxunub. O deyib: "Təəssüf ki, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən davam edən işğalı regional və beynəlxalq təhlükəsizliyə ciddi hədə olmaqda davam edir və ölkəmizin davamlı inkişaf üçün bütün potensialından istifadə səylərini sarsıdır. Ermənistanla münaqişə Azərbaycan ərazisinin beşdəbirinin işğalı ilə nəticələndi və bir milyondan çox insan məcburi köçkün və qaçqına çevrildi. Münaqişənin ilk günündən bəri döyüş əməliyyatları mülki əhaliyə və infrastruktura təsir göstərməklə yalnız Azərbaycan ərazisi daxilində aparılıb. Qoşulmama Hərəkatının bütün üzv dövlətlərinə Azərbaycanın beynəlxalq səviyyədə tanınan sərhədləri daxilində ərazi bütövlüyünə davamlı dəstəyinə görə ən dərin təşəkkürümü bildirmək istəyirəm".

Elmar Məmmədyarov deyib ki, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi Bandunq Prinsiplərinin 65 illiyi (2020) və Qoşulmama Hərəkatının yaradılmasının 60 illiyi (2021) ilə üst-üstə düşəcək. Hər iki ildönümü Qoşulmama Hərəkatına üzv dövlətlərin bu günə qədər əldə edilən uğurları nəzərdən keçirmələrinə yaxşı təkan verəcək. Öz növbəmizdə biz Hərəkatın təməl prinsiplərinin inkişafına töhfə vermək üçün əlimizdən gələni əsirgəməməyi öhdəmizə götürürük.

## Ərdoğan: "Vədlər tam nəticəsini vermədi"



"Terror təşkilatı PKK/YPG-nin "Sülh Çeşməsi" hərəkatı bölgəsindən çəkilməsi üçün verilən müddət 22 oktyabrdan etibarən sona çatıb. SİA-nın türk mətbuatına istinadən verdiyi məlumata görə, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu barədə açıqlama verib. O, açıqlamasında bildirib: "Vədlər tam nəticəsini vermədi. Biz qayıdacağımız anda dəqiq nəticələr alacağıq. Güzəşt etsək, bir terror təşkilatı üçün yol açacağıq".

## "Qoşulmama Hərəkatının XVIII sammitinin Bakıda keçirilməsi mühüm əhəmiyyət kəsb edir"



"Qoşulmama Hərəkatının XVIII sammitinin Bakıda keçirilməsi mühüm əhəmiyyət kəsb edir". Bunu SİA-ya millət vəkili Elman Məmmədov deyib. Deputatın sözlərinə görə, Azərbaycan bütün beynəlxalq tədbirləri yüksək səviyyədə keçirib: "Beynəlxalq tədbirlərin Bakıda keçirilməsi və bu tədbirlərdə Azərbaycan - Dağlıq Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, əlaqələrin möhkəmləndirilməsi baxımından vacibdir. Azərbaycan balanslaşdırılmış, hansısa ölkənin daxili işinə qarışmamaq siyasəti həyata keçirir. Bakının belə tədbirlərə ev sahibliyi etməsi ölkəmizin nüfuzunu artırır".

Deputat qeyd edib ki, Venesuela prezidenti Nikolas Maduronun Bakı gəlişi protokol qaydasıdır: "Beynəlxalq ictimaiyyət Maduronu Venesuelanın prezidenti kimi tanıyır. Hər şey fakta əsaslanmalıdır. Ona görə də Maduronun Bakıya gəlişində qəbahət görmürəm".

## Ermənistanda növbəti narazılıqlar

Ermənistanda narazılıqlar artmaqdadır və bu narazılıqların fonunda Gümrüdə dəmiryol işçiləri tətil elan ediblər. SİA Ermənistana məxsus mətbuat səhifələrində yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə Cənubi Qafqaz Dəmir Yolları QSC-nin mətbuat katibi Ruben Grdzelyan aysor.am saytının müxbiri ilə söhbətində bildirib.

Cənubi Qafqaz Dəmir Yolları QSC-nin mətbuat katibi sürücülərin öz maaşlarından narazı olduğunu söyləyib. "Gümrüdəki lokomotiv anbarının sürücülərinin tətili dünən başlayıb. Onlar daha yüksək əmək haqqı tələb edirlər", deyə Ruben Grdzelyan qeyd edib.

# Elçin Quliyev: “Sərhədçilərimiz torpaqlarımızı azad etməyə hər zaman hazırdır”





***Oktyabrın 22-də Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının “Qazax” əlahiddə sərhəd diviziyasının xidməti ərazisində yeni hərbi hissə kompleksi istifadəyə verilib. DSX-dan SİA-ya verilən məlumata görə, bu münasibətlə təşkil olunmuş mərasimdə çıxış edən Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev Azərbaycan sərhədçisinin dövlətçiliyimizin və sərhədlərimizin keşiyində ayıq-sayıq dayandığını, Dövlət Sərhəd Xidmətinin bütün şəxsi heyəti üçün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırıqlarını icra etməyin böyük şərəf və məsuliyyət olduğunu bildirib, Ali Baş Komandanın qayğısı sayəsində Dövlət Sərhəd Xidmətinin bütün hərbi hissə və bölmələrində şəxsi heyət üçün yüksək xidməti və məişət şəraitinin yaradılmasını qeyd edib.***







Ermənistanla dövlət sərhədinin Qazax və Ağstafa rayonları ərazisindən keçən hissəsinin Dövlət Sərhəd Xidməti tərəfindən mühafizəyə götürülməsinin dövlət sərhədlərinin bütövlüyünün təmin edilməsi istiqamətində mühüm addım olması xüsusi vurğulanıb, bu istiqamətdə sərhəd infrastrukturunun yaradılması üzrə həyata keçirilən geniş miqyaslı tikinti-inşaat və quruculuq işləri, o cümlədən düşmənin təxribatlarına baxmayaraq sərhəd döyüş mövqelərinin təkmilləşdirilməsi üzrə görülən işlər haqqında məlumat verilib, Azərbaycan sərhədçilərinin işğalda olan torpaqlarımızın azad olunmasına öz ciddi töhfələrini verməyə hər zaman hazır olmaları bildirilib.

Tədbirdə iştirak edən Ağstafa rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev sərhədçiləri təbrik edərək onlara şərəfli xidmətlərində uğurlar arzulayıb.

Tədbir zamanı xidmətdə yüksək nəticələr göstərmiş bir qrup hərbi qulluqçu təltifləndirilib.

Çıxışlarda sərhədçilərin yerli əhali, ictimaiyyət nümayəndələri ilə əlaqələrinin möhkəm zəmin üzərində qurulmasının Vətənimizin hüdudlarının qorunması işində müsbət rol oynaması, icra hakimiyyəti, prokurorluq, dövlət təhlükəsizliyi və daxili işlər orqanları ilə sıx əməkdaşlığın, Müfadiə Nazirliyinin hərbi hissələri ilə qarşılıqlı fəaliyyətin dövlət sərhədlərimizin mühafizəsinin daha da gücləndirilməsinə xidmət etməsi xüsusi qeyd olunub.

Açılışı bildirən rəmzi lent kəsildikdən sonra hərbi hissə kompleksinə baxış keçirib. Hərbi hissədə xidmətin yüksək səviyyədə təşkili və sərhədçilərin istirahəti üçün hər cür şərait yaradılıb. Hərbi hissə kompleksində xidməti və yaşayış binaları, tibb məntəqəsi, idman zalı, təminat binaları, su rezervuarları inşa olunub.

Tədbirin sonunda Dövlət Sərhəd Xidmətinin rəhbər heyəti və qonaqlar şəxsi heyətlə birlikdə nahar ediblər. Səfər çərçivəsində təmas xəttində yerləşən sərhəd döyüş məntəqələrində xidməti-döyüş fəaliyyətinin vəziyyəti yoxlanılıb.

# “Qarabağ Azərbaycandır və NİDA”

## *Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) “Qarabağ Azərbaycandır!” devizi altında kütləvi vətənpərvərlik tədbiri keçirilib*

***Dünən Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) “Qarabağ Azərbaycandır!” devizi altında kütləvi vətənpərvərlik tədbiri keçirilib. SİA-nın verdiyi məlumata görə, UNEC və “Səs” Media Qrupunun birgə təşkilatçılığı, Müdafiə Nazirliyinin təşəbbüsü ilə keçirilən tədbirdə Ümummilli Lider Heydər Əliyevin və respublikamızın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dövlət himni ifa olunub.***











Prezident İlham Əliyevin oktyabrın 3-də Soçidə “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısında çıxışından fraqmentlərdən ibarət SƏS TV-nin hazırladığı video-çarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan UNEC-in rektoru, iqtisad elmləri doktoru, professor Ədalət Muradov söyləyib ki, bu gün Azərbaycanda elə bir vətəndaş tapılmaz ki, torpaqlarımızın işğaldan azad olunmasını istəməsin. Onun sözlərinə görə, hər bir vətəndaş Ali Baş Komandanın əmrini gözləyir: “Qarabağ hamımızındır. Qarabağı azad etməyə məhkumuq. UNEC-in 20 minlik kollektivi bu məqsədə xidmət edir. Bu gün hər kəs, eləcə də UNEC-in kollektivi Ali Baş Komandanın ətrafında sıx birləşərək, milli birlik nümayiş etdirir”.

Oktyabrın 3-də Prezident İlham Əliyevin Şoçidə “Valday” Beynəlxalq Diskussiya Klubunun tədbirində etdiyi çıxışına toxunan rektor söyləyib ki, ölkə başçısı Ermənistanın baş naziri Nikol Paşinyana cavab olaraq “Qarabağ Azərbaycandır və Nida” deyərək qəti fikir ortaya qoydu: “Prezident İlham Əliyev çıxışı zamanı Azərbaycanın ərazi bütövlüyü ilə bağlı dövlətimizin dəyişməz mövqeyini bir daha nümayiş etdirdi. Bu fikir hamımızın ürəyincə olmaqla yanaşı, bu ideyaya yeni nəfəs verdi. Hər kəs bir daha əmin oldu ki, tezliklə Dağlıq Qarabağa qayıdacağıq”.

Ə.Muradov vurğulayıb ki, Prezident İlham Əliyevin bu çağırışı milli ideya statusuna, millu şüara çevrilib: “Ürəyində Vətən sevgisi olan hər bir azərbaycanlı Ali Baş Komandanın ətrafında birləşərək bu hərəkata dəstək olmalıdır. Bu, artıq bizim fəaliyyət istiqamətimizə çevrilib”.

Milli Məclisin sədr müavini Bahar Muradova çıxışında tədbirin təşkilatçılarına minnətdarlıq edib. O söyləyib ki, son günlər Azərbaycanda milli ideya şüara çevrilən ifadə ilə bağlı mühüm tədbirlər həyata keçirilir: “Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, hazırda işğala görə Azərbaycanın digər ərazilərində yaşamağa məcbur olanları öz yurdlarına qayıtmasına nail olmalıyıq. Bu amala çatmaq üçün hələ Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründən addımlar atılır və bu gün də Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Ötən illər ərzində Azərbaycan iqtisadi, hərbi və digər sahələrdə gücünü artırıb, atılan addımlar Azərbaycanı bu ideyadan heç zaman çəkilməyəcəyinə aparan yoldan ibarət olub”.

B.Muradova qeyd edib ki, bu gün bütün dünya anlayır ki, Qarabağ heç zaman Ermənistanın və ya müstəqil ola bilməz: “Qarabağ Azərbaycanındır və ərazi bütövlüyümüzdür. 2016-cı ildə aprelində əldə olunan qələbələr ordumuzun güclü olduğunu sübut edərək, Ermənistanın ordusu ilə bağlı mifi puç etdi. Bu gün də bu proses davam edir. Bu qələbənin üzərinə Prezident İlham Əliyev növbəti qələbəni əlavə etdi. Ölkə başçısı Soçidə “Qarabağ Azərbaycandır və Nida” ifadəsi ilə bütün dünyaya bir daha mövqeyini açıq şəkildə ifadə etdi. Hər kəs bu NİDA-nın arxasında NİDA olmalı, öz fəaliyyəti ilə ordumuza dəstək verib, dövlətimizi qorumalıdır. “Qarabağ Azərbaycandır və Nida” şüarını hər kəs səsləndirməlidir”.

Daha sonra Səs Media Qrupunun rəhbəri, fəlsəfə üzrə fəlsəfə doktoru, KİVDF-nin Müşahidə Şurasının üzvü Bəhruz Quliyev çıxış edərək vurğulayıb ki, bugünkü həmrəylik Azərbaycan Prezidentinin “Qarabağ Azərbaycandır və Nida” ifadəsinin təntənəsidir. O bildirib ki, dövlət başçısı İlham Əliyev Soçidə “Valday” Diskussiya Klubunun tədbirində Ermənistanın baş naziri Nikol Paşinyanın anormal və daxili auditoriyaya hesablanan fikirlərinə qarşılıq olaraq NİDA işarəsi qoydu: “Bu, Azərbaycanın diplomatik qələbəsinin, iqtisadi inkişafının, xalqının öz liderinə sevgisinin NİDA-sı idi. Bu, Ali Baş Komandanın öz xalqına, ordusuna əminliyinin NİDA-sı idi”.

“Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması” İctimai Birliyinin İdarə Heyətinin sədri Tural Gəncəliyev isə söyləyib ki, bu gün Azərbaycan xalqı tezliklə öz torpaqlarına qayıdacağına əmindir. Sonra birləşmiş rəqs kollektivlərinin və solistlərin iştirakı ilə “Qarabağ Azərbaycandır!” adlı bədii-xoreoqrafik kompozisiyası nümayiş etdirilib.

***Nailə Məhərrəmova***

# Milli romantik şeirin və mənzum faciənin banisi

## Bu gün filosof-şair və istedadlı dramaturq Hüseyn Cavidin doğum günüdür

***Azərbaycan xalqının XX əsrdə yetirdiyi ən böyük şəxsiyyətlərdən olan milli romantik şeirin və mənzum faciənin banisi, filosof-şair və istedadlı dramaturq Hüseyn Cavid ictimai fikir tarixində böyük rol oynamışdır. Hələ sağlığında öz orijinal sənət yolu ilə milli ədəbi-ictimai fikrin diqqətini yaradıcılığına cəlb etmiş Hüseyn Cavid irsi günahsız yerə repressiya olunduqdan sonra, bir müddət yasaq edilsə də, əsl vətənpərvər ziyalıların xatirindən bir an da çıxmamış, yeri gəldikcə, şifahi şəkildə olsa da, təbliğ edilmişdir. Bütün böyük klassiklər kimi, Hüseyn Cavid də zamanın sınağından alnıaçıq çıxaraq, layiq olduğu bəraəti almışdır.***



Xalqımızın bir çox klassik sənətkarı kimi, Hüseyn Cavid irsinin və sənətkar şəxsiyyətinin əsl qiymətini sözün-sənətin böyük bilicisi və hamisi Azərbaycan xalqının Böyük Oğlu, Ümummilli Lider Heydər Əliyev vermiş, onun istər cismən, istərsə də mənən vətəninə və xalqına qaytarılmasında müstəsna rol oynamışdır. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Hüseyn Cavidin nəşinin hələ 1982-ci ildə Uzaq Sibirdən vətəninə gətirilməsi və Naxçıvanda məzarı üzərində möhtəşəm məqbərənin ucaldılması milli ruhun dirçəlişi və azərbaycançılıq məfkurəsinin təntənəsi baxımından, müstəsna əhəmiyyətə malik misilsiz bir hadisədir. Ulu Öndər Heydər Əliyev deyirdi: "Tarix hər şeyi öz yerinə qoydu. Hüseyn Cavidin cənazəsi də Sibirdən öz vətəninə gətirildi, onun adı da yüksəldi".

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Hüseyn Cavidin cənazəsinin qalıqlarının Azərbaycana - şairin doğma yurdu Naxçıvana gətirilməsi Sovet məkanında yaşadığımız illərdə, həqiqətən də, böyük maraq doğurmuşdu. Milli mədəniyyətimizin hərtərəfli inkişafına, yüksəlişinə daim təkan verən Ulu Öndər Heydər Əliyev hələ Azərbaycan KP MK-nın Birinci Katibi vəzifəsində çalışarkən, 1981-ci ildə Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında qərar qəbul etmiş, bu qərardan sonra - 1982-ci il oktyabrın 3-də Naxçıvana səfəri zamanı Cavidin cənazəsinin qalıqlarının Uzaq Sibirdən tapılıb gətirilməsinə xeyir-dua vermişdir. 1982-ci il oktyabrın 12-də Naxçıvan Vilayət Partiya Komitəsi Hüseyn Cavidin məzarının tapılması, cənazəsinin qalıqlarının Azərbaycana gətirilməsi ilə bağlı tarixi bir qərar qəbul etmiş və bu qərarın icrası rusiyalı həmkarlarının köməyindən istifadə edib, şairin məşəqqətli ömür yolunu tədqiq edərək, Cavid haqqında Uzaq Sibirdə saxlanılan sənədlərin əldə olunmasına nail olan Naxçıvan Vilayət Partiya Komitəsinin katibi Həmid Cəfərova həvalə olunmuşdu.

Cavidin cənazəsinin qalıqları onilliklərdən sonra uzaq və Buzlu Sibirin əlçatmaz yerlərindən doğma yurdu Naxçıvana gətirildi. Böyük dramaturqun doğum günündə onun keçdiyi ömür yolunu bir daha vərəqləyirik. Böyük dramaturq Hüseyn Cavid 1882-ci ildə oktyabrın 24-də Naxçıvanda ruhani ailəsində dünyaya göz açıb. İbtidai təhsilini Naxçıvanda molla məktəbində, orta təhsilini isə M.T.Sidqinin "Məktəbi-Tərbiyə" adlı yeni üsullu məktəbində almışdır. 1899-1903-cü illərdə Cənubi Azərbaycanda olmuş, Təbrizin "Talibiyyə" mədrəsəsində təhsilini davam etdirmişdir. İstanbul Universitetinin Ədəbiyyat şöbəsini bitirmiş, Naxçıvanda, sonra isə Gəncə və Tiflisdə, 1915-ci ildən isə Bakıda müəllimlik etmişdir. Hüseyn Cavid klassik Azərbaycan ədəbiyyatının ən yaxşı ənənələrini inkişaf etdirən sənətkarlardandır. O, XX əsr Azərbaycan mütərəqqi romantizminin banilərindən biri olmuşdur.

Azərbaycan ədəbiyyatında ilk mənzum faciə olan "Şeyx Sənan" (1914) əsərində xalqları bir-birinə qovuşdurmaq üçün ümumbəşəri din ideyasını ortaya atmışdır. Hüseyn Cavid bu dövrdə tədriclə "haqq verilmir, alınır" ideyasına gəlib çıxmışdır. Yaradıcılığında mühüm yer tutan "İblis" (1918) mənzum faciəsində dövrün bütün mürtəce qüvvələri - "insan insana qurddur" fəlsəfəsinin tərəfdarları, "iyirminci əsrin mədəni vəhşiləri" olan dairələri İblis surətində ümumiləşdirilmiş və işğalçı müharibələrə lənət yağdırılmışdır.

Ümummilli Lider Heydər Əliyevin "Hüseyn Cavidin 120 illik yubileyi haqqında" imzaladığı Sərəncamdan bir gün sonra 2002-ci il 24 oktyabrda, yəni Hüseyn Cavidin 120 illik yubileyi günündə şairin Ev Muzeyi açıldı. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirir. Azərbaycan Prezidentinin Sərəncamına əsasən, böyük sənətkarın əsərləri latın qrafikasında çap olunub. Hüseyn Cavidin 130 və 135 illik yubileylərinin keçirilməsi haqqında dövlət başçısı sərəncamlar imzalamışdır. Hüseyn Cavid son dərəcə dərin məzmunlu yaradıcılığı ilə çoxəsrlik Azərbaycan ədəbiyyatı xəzinəsinə tarixi-mədəni dəyərlər bəxş etmiş qüdrətli söz sənətkarıdır. O, Şərqin zəngin fəlsəfi-poetik irsi zəminində yüksələrək və dünya romantizm ənənələrindən uğurla bəhrələnərək, Azərbaycan xalqının ədəbi-bədii fikir salnaməsinə parlaq səhifələr yazmışdır. Mütəfəkkir sənətkarın neçə-neçə oxucu və tamaşaçı nəslinin estetik zövqünü müəyyənləşdirən əsərləri bu gün də öz monumentallığını və yüksək təsir gücünü qorumaqdadır. Böyük dramaturq Hüseyn Cavid "Şeyx Sənan" faciəsində yaratdığı dramatik münaqişə vasitəsilə insanın həqiqət axtarışında olaraq, onun hisslərinin aliliyini yüksəltmək səyləri ilə ucala biləcəyinin mümkünlüyünü isbat etmişdir. Hüseyn Cavid də, məhz belə ali dəyərlərin axtarışında olaraq, əbədiliyini qazanmışdır.

Azərbaycan xalqının ədəbi-bədii fikir salnaməsinə parlaq səhifələr yazmış sənətkarın neçə-neçə oxucu və tamaşaçı nəslinin estetik zövqünü müəyyənləşdirən əsərləri bu gün də öz monumentallığını və yüksək təsir gücünü qorumaqdadır.

***Zümrüd BAYRAMOVA***

## Xaricə gedən azərbaycanlıların 82,1 faizi dəmir yolu və avtomobil nəqliyyatından istifadə edib



Cari ilin yanvar-sentyabr aylarında xarici ölkələrə səfər edən Azərbaycan vətəndaşlarının 82,1 faizi dəmir yolu və avtomobil nəqliyyatından istifadə edib. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, həmçinin xarici ölkələrə səfər edən vətəndaşlarımızın 17,2 faizi hava, 0,7 faizi isə su nəqliyyatına üstünlük verib.

## İngiltərədə yük maşınından 39 nəfərin meyiti tapıldı

İngiltərədə yük maşınında 39 nəfərin meyiti aşkarlanıb. Maşının Bolqarıstandan İngiltərəyə gəldiyi bildirilir. Öldürülənlərdən biri azyaşlıdır. Polis faktla bağlı 25 yaşlı Şimali İrlandiya vətəndaşını şübhəli şəxs qismində saxlayıb.

# Çox ciddi, yüksək səviyyəli və mükəmməl kadr islahatları həyata keçirilir

Ölkə başçısı hələ 2003-cü ildə ilk dəfə prezident seçiləndə öz seçkiqabağı platformasında, eləcə də inauqurasiyada çıxışında dedi ki, mən Azərbaycanı dünyanın ən müasir, inkişaf etmiş, demokratik yolla gedən bir ölkəsinə çevirəcəm və Azərbaycan xalqının da, hər bir vətəndaşın da prezidenti olacam. Bunu SİA-ya müsahibəsində millət vəkili Məlahət İbrahimqızı deyib.

O, xüsusilə vurğulayıb ki, doğrudan da 2003-cü ildən də bu günə qədər ölkəmizin bütün sahələrində saysız-hesabsız uğurlar əldə olunub, nailiyyətlərə imza atılıb və bütün bu uğurlara, nailiyyətlərə də möhtərəm Prezidentimiz imza atıb.

"Mən hesab edirəm ki ölkəmizdə çox ciddi islahatlar həyata keçirilib və sonuncu dəfə prezident seçkilərində, yəni 2018-ci ildə aprel seçkisindən sonra da möhtərəm Prezidentimiz dedi ki, bu qarşıdakı illərdə Azərbaycanda bütün sahələrdə, eləcə də dövlət idarəçiliyində də, həmçinin siyasi islahatlar da həyata keçiriləcək. Yəni təkcə iqtisadi, sosial sferada deyil, eyni zamanda dövlət idarəçiliyində, hüquq sahəsində də ciddi islahatlar keçirilir və bu da göz qabağındadır ki, keçən ildən bu günə qədər çox



ciddi islahatlar həyata keçirilib və biz bu islahatların şahidiyik. Eyni zamanda çox ciddi və yüksək səviyyəli, mükəmməl kadr islahatları da həyata keçirilir. Möhtərəm Prezidentimiz öz çıxışlarında da hər dəfə deyir ki, daha geniş dünyagörüşə sahib, yüksək səviyyədə təhsil almış, Azərbaycanda da yüksək nailiyyətlər əldə etmiş gənclərin idarəçiliyə gətirilməsi vacibdir və bu müddət ərzində də biz bunun şahidiyik və xüsusən son dövrdə də bu prosesin necə sürətlə getdiyini görürük. Cənab Prezident Şahin Mustafayevlə görüşdə də bu fikirləri səsləndirib ki, nəinki dövlət idarəçiliyində, iqtisadiyyat, sosial sahədə, eyni zamanda Yeni Azərbaycan Partiyasının da işində yeniliklərin olması vacibdir və biz buna inanırıq ki, olacaqdır.

Dövlətimizin güclənməsində, ölkəmizin inkişafında xüsusi xidmətləri olan qocaman, daha doğrusu zəngin təcrübəyə malik dövlət adamlarımız var və bu dövlət adamlarımız da təbii ki, möhtərəm Prezidentimizin tələblərini, mesajını çox hörmətlə, yüksək səviyyədə qəbul edirlər və bir çoxu da siyasi mədəniyyət göstərərək özləri istefa ərizəsi ilə Möhtərəm Prezidentimizə müraciət edirlər və əminəm ki, çox gözəl işlər olacaq, Azərbaycan çox gözəl uğurlara imza atacaq. Azərbaycanda gənclərin dövlət idarəçiliyində, siyasətdə, parlamentdə, yerli icra strukturlarında, icra hakimiyyətində, bələdiyyələrdə təmsil olunmaqları üçün çox böyük imkanlar yaradılacaq. Prezidentimiz onsuz da hər zaman gənclərə deyir ki, siz mənə güvənin və mən sizə güvənirəm. Yəni gənclərin ən yaxın dostudur möhtərəm prezidentimiz və bu mənada hesab edirəm ki, görülən işlərin hər biri ictimaiyyət tərəfindən çox yüksək qiymətləndirilir, təqdir olunur, dəyərləndirilir", deyə millət vəkili Məlahət İbrahimqızı bildirib.

***İnam Hacıyev***

# "ATƏT nümayəndəsinin icazəsiz aksiya ilə bağlı yanaşması əsassızdır"



"Oktyabrın 19-da Bakıda müxalifət nümayəndələrinin icazəsiz aksiyası ilə əlaqədar müxtəlif beynəlxalq təşkilatlar tərəfindən bəyanatlar səsləndirilir. Bu bəyanatların müəyyən qismi jurnalistlərin prosesi işıqlandırmaları vəziyyəti ilə bağlıdır. İddia olunur ki, 19 oktyabr mitinqində media təmsilçilərinin peşə fəaliyyətlərini yerinə yetirmələrinə ciddi maneçilik törədilib, onlara görünməmiş təzyiqlər göstərilib. Obyektiv və subyektiv səbəblərdən hansısa qurumların, səfirliklərin belə mövqeyini müəyyən mənada təbii qarşılamaq mümkündür. Ancaq bu sayaq əsassız, qeyri-ciddi yanaşmanın ATƏT kimi nüfuzlu təşkilatın media üzrə nümayəndəsi tərəfindən də dövriyyəyə buraxılması təəccüb doğurur". Bunu SİA-ya Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov deyib.

O bildirib ki, Azərbaycan Mətbuat Şurası mitinqdən öncə jurnalistlərə və hüquqmühafizə orqanlarının təmsilçilərinə çağırış edərək, jurnalistləri üzərində "PRESS" yazılmış gödəkçələrdə olmağa, ikinciləri isə birincilərin mitinqi işıqlandırmalarına şərait yaratmağa çağırıb: "Bunu izləmək üçün Şuranın Daxili İşlər Nazirliyi ilə birgə yaratdığı monitorinq qrupunun üzvləri aksiya yerində oldular. Konkret mobil telefon nömrələri elan edildi və bildirildi ki, jurnalistlər hər hansı çətinliklə üzləşəcəkləri halda həmin nömrələrlə əlaqə saxlaya bilərlər. Aksiya gedişində monitorinq qrupunun üzvlərinə müraciət edənlər də oldu. Ancaq müraciətlər jurnalistlərin aksiyanı işıqlandırmaları ilə bağlı ümumi mənzərəyə hər hansı təsir göstərmədi. Mənzərə isə bu idi ki, mitinqdə jurnalistlərin informasiya əldə etmələrinə şərait yaradılıb".

Ə. Amaşovun sözlərinə görə, aksiyanın keçirildiyi elə bir yer olmadı ki, orada jurnalistin fəaliyyətinə maneçilik törədilsin: "Bunu mitinqlə bağlı yayılmış video-görüntülərin çoxluğu da təsdiq edir. Bu mənada ATƏT-in media üzrə nümayəndəsi Harlem Dezirin jurnalistlərin məlumat yaymaq hüquqlarını heç bir qorxu və maneə olmadan icra edə bilmədiklərinə dair fikri birmənalı şəkildə qərəzlidir. Anlaşılan bu ki, cənab Dezir aksiya ilə bağlı görüntüləri izləməyib, ümumiyyətlə prosesdən xəbərsizdir. Görəsən, o, hansı mənbənin məlumatına söykənərək bu qənaətə gəlib? Hər halda mitinqdə jurnalistlərin peşə fəaliyyətini yerinə yetirmələrinin monitorinqini aparacağını öncədən bəyan edən yeganə təşkilat olan Mətbuat Şurasının fikrini öyrənməyib".

MŞ sədri qeyd edib ki, qərəzliliyi, qeyri-obyektivliyi şübhə doğurmayan daha bir məqam budur ki, ATƏT-in media üzrə nümayəndəsi təzyiqə məruz qaldığını iddia etdiyi KİV-lərin adlarını çəkir: "Nəzərə alır ki, jurnalistlərin əksəriyyəti gödəkçədəydilər. H.Dezirin qeyd etdiyi KİV-lərin nümayəndələri isə başqalarından heç nə ilə fərqlənmirdilər. Onlar digərləri ilə birlikdə deməli olar, eyni yerdə eyni mənzərəni lentə alırdılar. Necə ola bilərdi ki, polis təzyiq göstərmək, fəaliyyəti məhdudlaşdırmaq üçün kimisə fərqləndirsin? Bəli, belə görünür, cənab Dezir əvvəlcədən hazırladığı və konkret hədəfləri olan bəyanat mətnini yayıb. ATƏT kimi nüfuzlu qurumun təmsilçisinin daşıdığı həssas vəzifəyə bu qədər məsuliyyətsiz yanaşması təəssüf doğurur".

***Nailə Məhərrəmova***

# YAP Binəqədi rayon təşkilatının A.Məmmədov - 10 ünvanlı ərazi ilk partiya təşkilatında görüş keçirilib



Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının A.Məmmədov - 10 ünvanlı ərazi ilk partiya təşkilatında görüş keçirilib.

İclası ərazi ilk partiya təşkilatının üzvü Paşa Rzayev açaraq, iştirakçıları salamlayıb.

YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov çıxışında son vaxtlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkəmizdə aparılan sosial, iqtisadi, struktur və kadr islahatları nəticəsində, əldə edilən uğurlardan danışıb. Bu uğurların əldə edilməsində və təbliğində Yeni Azərbaycan Partiyasının rolunu qeyd edib.

R.Göyüşov, eyni zamanda, ölkəmizdə əldə edilən uğurları, nailiyyətləri gözü götürməyən anti-Azərbaycan qüvvələrin istər ölkə daxilində, istərsə də ölkə xaricində dövlətimizin əleyhinə çirkin təbliğat və qarayaxma kampaniyaları apardıqlarını qeyd edib. Bu vasitələrdən birinin də sosial şəbəkələr vasitəsilə aparıldığını vurğulayıb. R.Göyüşov belə kampaniyalara qarşı hər bir YAP üzvünün mübarizə aparmasının, onların ifşa olunaraq, əsl niyyətlərinin cəmiyyətimizə təqdim olunmasında, ölkə və dünya ictimaiyyətinə çatdırılmasında fəal mövqe nümayiş etdirməsinin zəruri olduğunu qeyd edib.

Sonda bir qrup partiya üzvü Energetika İşçilərinin Peşə Bayramı və rayonun ictimai-siyasi həyatında fəal iştirakına görə fəxri Fərmanla təltif edilib.

***ZÜMRÜD***

***"DOST mərkəzləri müasir Azərbaycanın siması kimi" mövzusunda müsabiqənin qaliblərinə mükafatlar təqdim edilib. SİA-nın məlumatına görə, tədbirdə iştirak edən millət vəkilləri və media kapitanları DOST mərkəzi ilə tanış olublar. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) birgə təşkil etdiyi "DOST mərkəzləri müasir Azərbaycanın siması kimi" mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi olub.***




Tədbiri açan DOST Agentliyinin rəhbəri ... başçısı, eyni zamanda, şəffaflığın, dövlət nəzarətinin və ictimai nəzarətin təminatını əsas vəzifələrdən biri kimi müəyyən edib, "Çox güclü siyasi iradə ortaya qoyulub. Biz Azərbaycanı müasir, sürətlə inkişaf edən, şəffaflığı öz siyasətində bayraq edən ölkə kimi görmək istəyirik və buna nail olacağıq", deyə vurğulayıb. S.Babayev müvafiq fəaliyyət sahələrində ictimai iştirakçılığın və ictimai nəzarətin, nazirlik üzrə məlumat-

# DOST mərkəzində jurnalist müsabiqəsinin qaliblərinə mükafatlar təqdim edilib



Tədbirdə iştirak edən millət vəkilləri və media kapitanları əvvəlcə DOST mərkəzi, burada əhaliyə göstərilən xidmətlərlə tanış olublar. Müsabiqə qaliblərinin mükafatlandırılması tədbirində Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev Prezident İlham Əliyevin uğurlu sosial islahatlar proqramının nailiyyətlərini qeyd edib. O bildirib ki, bu il 4,2 milyon vətəndaşın rifahına ciddi dəstək olan iki sosial paket icra olunub. Həmçinin həssas qrupları əhatə edən sosial müdafiə və aktiv məşğulluq proqramları getdikcə genişlənir. Eyni zamanda, əmək, məşğulluq, sosial müdafiə və təminat sahələrində idarəçiliyin və əhaliyə xidmətlərin optimal və şəffaf, çevik iş mexanizmləri üzərində qurulması, vətəndaş məmnuniyyətinə nail olunması üçün mühüm islahatlar aparılır. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü olab DOST layihəsinin gerçəkləşməsi bu sahədə mühüm uğurlar əldə etməyə imkan yaradıb. "DOST mərkəzləri müasir Azərbaycanın siması kimi" mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin təşkilində məqsəd dövlət sosial xidmətlərinin "bir pəncərə"dən, tam şəffaf, operativ, vətəndaş rahatlığı və məmnunluğu prinsipi ilə göstərilməsinə imkan verən DOST layihəsinin üstünlükləri barədə geniş ictimai məlumatlandırmada peşəkar jurnalist əməyinin stimullaşdırılmasıdır.

Nazir deyib ki, cənab Prezident sosial-iqtisadi müşavirədə gələn il də ciddi sosial proqramlar icra ediləcəyini, əhalinin yaşayış səviyyəsini yaxşılaşdırmaq üçün önəmli addımlar atılacağını bəyan edib. Dövlət ların ictimai açıqlığının təmin edilməsi üçün görülmüş işləri qeyd edib. Bildirib ki, "E-sosial" internet portalı vətəndaşlara özləri barədə sosial xarakterli məlumatlara çıxış imkanı ilə bərabər, öz sosial hüquqlarının təminatına ictimai nəzarət imkanı verib. Burada özünüməşğulluq proqramı iştirakçıları, onlara aktivlərin verilməsi prosesi, aktivlərin keyfiyyəti və s. məlumatlar açıqlanır, nazirliyin rəsmi saytında "İşsizin DOSTu" proqramı iştirakçılarının siyahısı təqdim olunur.

Nazir ictimaiyyətlə əlaqələrin effektiv təşkilində, ictimai məlumatlandırmada media ilə fəal əməkdaşlığa xüsusi önəm verildiyini deyib. Tədbirdə KİVDF-nin icraçı direktoru Vüqar Səfərli bildirib ki, 24 iyul 2019-ci il tarixdə elan edilən və 27 sentyabr 2019-cu il tarixdə başa çatan müsabiqəyə 17 KİV-dən 29 yazı təqdim edilib. Yazılar 3 nəfər ekspert tərəfindən qiymətləndirilib. Müsabiqənin şərtlərinə əsasən, I yerin qalibi (1 nəfər) üçün 1000 manat, II yerin qaliblərinin (2 nəfər) hər biri üçün 800 manat, III yerin qaliblərinin (3 nəfər) hər biri üçün 500 manat, eləcə də həvəsləndirici yerlərə layiq görülmüş KİV əməkdaşlarının (5 nəfər) hər biri üçün 200 manat pul mükafatı və diplomlar nəzərdə tutulub.

Azərbaycan Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov çıxış edərək, dövlət qurumlarının fəaliyyətində mətbuatla sıx əməkdaşlığın, o cümlədən belə müsabiqələrin keçirilməsinin əhəmiyyətini vurğulayıblar. Sonra müsabiqənin qaliblərinə diplom və mükafatlar, həmçinin həvəsləndirici yerlərə layiq görülmüş KİV əməkdaşlarına mükafat və diplomlar verilib.

# Müxalifət anti-Azərbaycan fəaliyyətini bir daha təsdiq etdi

***Dağıdıcı müxalifətin Bakının mərkəzində təxribat və qarşıdurmalarla müşayiət olunan qeyri-qanuni aksiya keçirməyə cəhd etməsi, bir daha xarici məkrli qüvvələrin sifarişi və göstərişi olduğu təsdiqləndi. Söhbət etdiyimiz müsahiblərimiz "Milli Şura"da təmsil olunan qüvvələrin anti-Azərbaycan qüvvələrin əlaltısı olduğunu bildirdilər.***

### Yeni Azərbaycan Partiyası Suraxanı rayon təşkilatının sədri VÜQAR SEYİDOV: "Radikal müxalifətin qanunsuz mitinqləri cəmiyyətin normal inkişaf dinamikasına müdaxilə etmək cəhdidir"



- Son bir ilə yaxın müddətdir ki, Azərbaycanda özlərini "demokratik qüvvələr" adlandıran bir qrup adam ölkə daxilində sabitliyi pozmaq, inkişafımızı ləngitmək, ölkə xaricində isə əldə etdiyimiz uğurlara kölgə salmaq, ölkəmizin beynəlxaq nüfuzunu azaltmaq məqsədi ilə əhalini müxtəlif internet televiziyaları və sosial şəbəkələr vasitəsi ilə insanları qanunlara tabe olmamağa, hakimiyyət nümayəndələrinin qanuni tələblərini yerinə yetirməməyə ölkə ərazisində çaşqınlıq yaratmağa səsləyir, hətta belə icazəsiz mitinqlərə qatılmayanları təhqir edir və qorxaq adlandırırlar. Cəmiyyətdə, xalq arasında nüfuz qazana bilməmiş həmin ünsürlər, real həyatda bütün fəaliyyətlərini dayandıraraq, virtual aləmdə yalan, şər, böhtan vasitəsi ilə siyasi manevrlər etmək, xalqı və dövləti qarşı-qarşıya gətirmək istəyirlər. Biz onların adına, haqlı olaraq, "virtual müxalifət" deyirik. Azərbaycanda virtual müxalifətin heç bir real sosial bazaya əsaslanmadan bir qüvvə kimi davranması və sanki ciddi siyasi qurum kimi özünü cəmiyyətə sırıması, sadəcə, baş tutmayan iğtişaş yaratmaq cəhdləri ilə yadda qalır. Dağıdıcı müxalifətin qanuni fəaliyyət göstərməməsi artıq cəmiyyətimizə məlumdur. Əgər özlərinə siyasi lider və kütləni idarəetmə qabiliyyəti olan adam kimi hörmət etsəydilər, onlar heç vaxt ictimaiyyətin və medianın gözü qarşısında özlərini belə cılız aparmazdılar. İcazə verilən yerlərdə öz sözlərini deyər, əgər varsa, sosial bazalarını nümayiş etdirərdilər.

Radikal müxalifətin qanunsuz mitinqləri üçün seçdikləri yerlər Azərbaycan xalqının cəmiyyətinin normal inkişaf dinamikasına müdaxilə etmək cəhdidir və bir də sosial bazasızlıq, tərəfdarsızlıqdır. İnanın Lökbatanda, onlar üçün yaradılmış yüksək şəraitli yerlərdə 500 nəfər belə yığa bilsəydilər, daha ciddi siyasi fiqur kimi hardasa qəbul oluna bilərdilər. İndiki halda isə, vətəndaş kimi mən də, bir daha əmin oldum ki, müxalifət özünü yeniləməli, bir institut kimi sağlamlaşmalıdır. Hətta bəzən düşünürəm ki, bu insanlar siyasətdən başqa, bütün sahələrdə daha çox faydalı ola bilərdilər. Mən çox təəssüf hissi ilə bildirmək istərdim ki, özlərini "Milli Şura" adlandıran qurum Azərbaycandan kənarda 2013-cü il Prezident seçkiləri dövründə təsis edilib və milli maraqlarımızı özündə ehtiva etmir. Hətta o dövrdə Azərbaycan prezidentliyinə varlığında və məfkurəsində azərbaycançılıq olmayan, hətta Azərbaycan vətəndaşlığını qəbul etməmiş bir nəfəri namizəd kimi göstərməyə cəhd etmişdilər. Elə həmin qüvvələr bir zamanlar öz liderləri olan Əbülfəz Elçibəyi dəstəkləmədikləri qədər bu gün Ermənistan baş nazirinə etiramla yanaşır və sanki onunla eyni ağızdan bəyanatlar verirlər.

Bu gün onların Azərbaycan xalqından öz yarıtmaz siyasətlərinə dəstək istəmələri cəmiyyətimiz tərəfindən qəbul olunmur və onların cəmiyyətə yükləmək istədikləri aqressiv siyasi baxışları vətəndaşlarımız tərəfindən kəskin tənqid olunur və rədd edilir. Hətta bu gün Qarabağ, vətən deyə səslərinin ən gur yeri ilə, bu dəyərli məhfumları siyasi subyekt kimi istifadə etməkdən belə çəkinməyənlərin bir çoxu Qarabağın işğalında birbaşa və ya bilavasitə əlləri olmuş adamlardır. Əgər Azərbaycanda xalqın sükanı arxasına Ulu Öndər Heydər Əliyev keçməsəydi, biz bir dövlət olaraq məhv olar, dünya siyasi xəritəsindən silinərdik. İndi də, ağıllarında hakimiyyətdə olduqları dövrün cah-calallı yaşantısı, ağızlarında hakimiyyəti şəxsi maraqlar üçün istifadənin şirəsi qalan bu antimilli qüvvələr Azərbaycanda yenidən o dövrü bərpa etmək və cəmiyyətimizi inkişafdan saxlamaq istəyirlər. Lakin bir məqamı unudurlar ki, onların hakimiyyətə gəlmələri sırf təsadüf və Ulu Öndər Heydər Əliyevin Bakıya buraxılmaması ucbatından olmuşdur. Müstəqilliyimizin ilk illəri idi və onların hakimiyyətə gəlməsi xalqın kamil qərarı deyildi. Bu gün isə, Azərbaycan xalqı son iyirmi altı ildə verdiyi ən müdrik və ən kamil qərarın arxasında dayanır və Ulu Öndər siyasətinə öz dəstəyini verməyi üstün tutur. Xalqımızın Ulu Öndər Heydər Əliyevə və Onun ən layiqli davamçısı olan İlham Əliyevə bəslədiyi sevgi tükənməzdir. Bu da çox təbiidir!

Təkcə 2019-cu ili ümumi nəzərdən keçirtsək, görərik ki, ötən ilin arxada qalan doqquz ayı boyunca ölkəmizdə həm siyasi, həm iqtisadi, həm də, sosial layihələrin həyata keçirilməsi baxımından, çox ciddi uğurlar əldə olunmuşdur. Dünyanın bir çox dövlətləri və xalqları, müharibələr, aclıq və səfalətlə mübarizə apardığı bir zamanda, Azərbaycan nəin ki öz yerləşdiyi regionda, həm də, bütün dünyada öz inkişaf tempinə və inkişaf göstəricilərinə görə fərqlənir və təqdir olunur. İctimai-siyasi sabitliyin yüksək səviyyədə təmin edildiyi ölkəmizdə bütün sahələrdə əldə edilən müsbət nəticələr insanların firavan həyatını təmin edir. Azərbaycan dövlətinin prioritet istiqamət olaraq qəbul etdiyi sosialyönümlü siyasət əhalinin maddi rifahının yaxşılaşdırılmasına və sosial müdafiəsinin gücləndirilməsinə istiqamətlənmiş, ən gənc və uğurlu dövlət kimi Azərbaycan Respublikası daha da böyük uğurlara imza atmışdır.

Azərbaycanın ən ağrılı yeri Qarabağ problemidir, Azərbaycan ərazisinin 20 faizi Ermənistanın işğalı altındadır. Bu günlərdə Soçidə keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında Azərbaycan Prezidentinin çıxışı maraqla qarşılanıb. Cənab Prezident "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi". Ölkə Prezidenti qətiyyətli çıxışı və bəyanatı ilə Ermənistanın baş nazirinin Qarabağla bağlı sərsəm bəyanatlarını alt-üst etmiş oldu. Daha sonra Azərbaycan Prezidentinin Aşqabadda keçirilən MDB dövlət və hökümət başçılarının toplantısında erməni baş nazirinin üzünə və eyni zamanda, bütün dünya ictimaiyyətinə erməni yalanlarını açıq şəkildə ifşa etməsi, Azərbaycanın güclü liderə malik, güclü dövlət olduğunu bir daha bütün dünyada nümayiş etdirdi. Bir neçə gün bundan əvvəl, Cənab Prezidentin yanında keçirilmiş, iqtisadi məsələlərə həsr olunmuş müşavirədə, açıqladığı rəqəmlər, Azərbaycanın iqtisadi saldosunun, ixracla idxal arasında müsbət fərqin, yollarımızın MDB məkanın ən yüksək keyfiyyətə malik olması, dövlətimizin doğru-düzgün təmələ malik olduğunu və dinamik-dayanıqlı yüksələn inkişaf xətti ilə dünya dövlətləri arasında mövqeyinin daha da, gücləndirdiyini deyə bilərik.

### Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov: "Daxili ictimai-siyasi sabitliyi pozmağa çalışan bir qrup şəxs anti-Azərbaycan qüvvələrin oyuncağına çevrilib"

- Məlum olduğu kimi, bir müddət bundan öncə, "Milli Şura" Bakı Şəhər İcra Hakimiyyətinə müraciət edərək, 8 oktyabr tarixində şəhər administrasiyasının qarşısında 50 nəfərin iştirakı ilə piket keçirməsinə icazə istəmişdi. Bakı Şəhər İcra Hakimiyyəti Azərbaycan Respublikasında "Sərbəst Toplaşmaq Azadlığı haqqında" Qanunu və ölkəmizdə toplaşmaq azadlığını, söz və fikir azadlığını əldə rəhbər tutaraq müraciətə müsbət cavab vermiş, icazəli piket keçirilməsinə razılığını ifadə etmişdi. Lakin təəssüflər olsun ki, həmişəki amplua-sında olan radikal müxalifət və onun "Milli Şura"sı, dövlətin onlara yaratdığı şəraitdən sui-istifadə edərək, icazəli piketi qanunsuz kütləvi mitinqə çevirməyə cəhd göstərmiş, müraciətdə nəzərdə tutulmayan şüarlar səsləndirmiş, bununla da, əsl məkrli niyyətini bir daha ortaya qoymuşdur. Budəfəki piket də əvvəlkilərdən heç nə ilə fərqlənməmiş, əslində isə, müxalifətin radikal və qeyri-sivil mübarizə üsullarından xəbər vermişdir. Bəs bu ilin 19 oktyabr tarixində



Bakının mərkəzində nə baş verdi? Radikal müxalifətin əvvəlki şouları yenidən təkrarlandı. Bu dəfə, daha da həyasızcasına. Belə ki, "Milli Şura" və onun başbilənləri Azərbaycanın siyasi tarixində öz qəti radikallığı ilə seçilən Əli Kərimlinin təsiri ilə Bakı Şəhər İcra Hakimiyyətinə mitinq keçirilməsi ilə bağlı müraciət etdilər. İcra hakimiyyəti onlara mitinq keçirmək üçün təhlükəsiz, insanların gediş-gəlişinə mane olmayacaq bir yeri - Lökbatan qəsəbəsindəki stadionu təklif etdi. Lakin radikal müxalifət nə etdi?! Dövlət qurumunun bu müraciətini və razılığını nəzərə almayaraq, yenidən sabitliyin pozulmasına yönəlmiş addımlar atmaqda davam etdi. Lökbatan qəsəbəsindəki stadiona getməkdən imtina edərək, məhdud sayda olan tərəfdarlarını, cəmiyyəti hakimiyyətə qarşı itaətsizliyə, qeyri-qanuni hərəkətlərə və iğtişaşlara əl atmağa səslədi. İmtinasına isə, Lökbatanın uzaqda yerləşdiyini və oraya gediş-gəlişin çətinliyini bəhanə gətirdi. Azğınlaşdığını bir daha əməli ilə sübut etdi. İndi müxalifətin nümayəndələri və onlara züy tutanlar deyirlər ki, guya 19 oktyabrda rayonlardan Bakıya mitinqə gələnlərin qarşısı alınıb, onlara maneçilik törədilib. Bəs onda hardadır sadə məntiq? Necə olur ki, rayonlardan avtobusla Bakıya mitinqə gələ bilirlər? Əgər belədirsə, rayonlardan gediş-gəlişə ən yaxın və rahat ərazi olan Lökbatan qəsəbəsindəki mitinqdən nə üçün imtina edildi? Bununla, Ə.Kərimli və onun əlaltılar özləri-özlərini təkzib etmiş oldu. Nəticədə, "Milli Şura" və onların xarici havadarları yenidən qızıb, Azərbaycanda daxili xaos yaratmağa cəhdlər edərək, əhalinin sıx olduğu, ən çox dincəldiyi, iri metro stansiyasının, ticarət mərkəzlərinin yerləşdiyi ərazidə - "28 May" metrostansiyası ətrafında icazəsiz mitinq keçirəcəkləri ilə bağlı məlumatlar verməyə və əhaliyə qeyri-qanuni çağırışlar etməyə başladılar. Təəssüflər olsun ki, bu gərgin dünyada geosiyasi proseslərin getdiyi bir vaxtda öz dövlətinin müstəqilliyinə, təhlükəsizliyinə təhdidlər yağdıran və daxili ictimai-siyasi sabitliyi pozmağa çalışan bir qrup şəxs anti-Azərbaycan qüvvələrin oyuncağına çevrilib. Bununla da, öz şəxsi ambisiyaları uğrunda milli maraqlarını qurban verməkdən belə çəkinmirlər. Narahatedici məqamlardan biri də budur ki, həmin radikallar müəyyən sosial problemləri olan şəxslərin hissləri ilə oynayaraq, onların iradəsindən də sui-istifadə etmiş, onların icazəsiz mitinqdə iştirakına şərait yaradaraq, qanunsuz əməllərinin çevrəsini daha da genişləndirmişlər. Radikal müxalifətə və onların havadarlarına, xüsusilə, xatırlatmaq lazımdır ki, sərbəst toplaşmaq, söz azadlığı anarxiya demək deyil. Bu gün ölkəmizdə 55 siyasi partiya dövlət qeydiyyatından keçib və onların fəaliyyətinə tam şərait yaradılıb. Bu demokratiya deyilsə, bəs nədir?!

Dövləti maraqlarını heçə sayan, vəzifə hərisliyi ilə xarici maraqlı qüvvələrin qoltuğuna sığınan Ə.Kərimli və onun virtual dəstəkçiləri Sevinc Osmanqızı, Tural Sadıqlı və Qənimət Zahid öz əməlləri ilə özlərini Azərbaycanın tarixi zibilliyində basdırmaqda davam edirlər. Azərbaycan xalqı onların məkrli əməllərini hər zaman lənətlə xatırlayacaqdır. Təəssüf doğuran daha bir məqam isə, Avropa İttifaqı və ABŞ-ın icazəsiz mitinqlə bağlı bəyanat verərək, qanunsuz mitinqlərə bu və ya digər formada haqq qazandırması, bununla da, digər strateji tərəfdaş ölkənin daxili işlərinə qarışmağın çox pis nümunəsini ortaya qoyması oldu. Ancaq bildirmək yerinə düşər ki, ABŞ və Avropa ölkələrində mitinqlər və kütləvi nümayişlər zamanı polislərin qəddarlığı və qeyri-insani hərəkətləri daha dözülməzdir. Bunlarla müqayisədə isə, Azərbaycan polisi daha etik və daha sivildir. ABŞ və Avropa İttifaqı yaxşı olardı ki, "ədalətli" mövqeyini həmin ölkələrdə baş verənlərə münasibət bildirməklə ortaya qoysun. Hər kəs bilsin ki, Azərbaycan hüquqi-demokrat dövlətdir, müstəqil respublikadır və müstəqil siyasət yürüdən Azərbaycan xalqının iradəsinə uyğun olaraq, öz taleyini özü həll edir. Bu hadisələrə laqeyd qalmaq qəti yolverilməzdir. Heç bir xarici dövlət Azərbaycanın daxili işinə qarışa bilməz. Bu ölkədə qanunun aliliyi təmin edilir və hər kəs qanun qarşısında bərabər səviyyədə məsuliyyət daşıyır. Azərbaycanın müstəqilliyinə, suverenliyinə və təhlükəsizliyinə qarşı çıxmış hər kəs qanun qarşısında öz layiqli cavabını alacaqdır. Azərbaycan inkişaf etmiş bir dövlətdir və onun dünyada yüksək nüfuz sahibi olan siyasi Lideri var. Cənab İlham Əliyev prezident seçkiləri ərəfəsində, prezident seçildikdən sonra və andiçmə mərasimi zamanı səsləndirdiyi çıxışlarında dəfələrlə vurğulayıb ki, mənim siyasətimin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bu fikri əməli ilə sübut edən dövlət başçısı son bir il yarım vaxtda kifayət qədər mühüm sosial-iqtisadi islahatlar həyata keçirib.

***Zümrüd BAYRAMOVA***

# Avantüraçı siyasətin sonu uğursuzluqdur

## Nikol Paşinyan öz yalanının qurbanına çevrilir

***Yalan danışan heç vaxt əvvəl dediyi sözü yadında saxlaya bilmir. Ermənistanın baş naziri Nikol Paşinyan da hər gün yalan vədlər verməklə yanaşı, heç dediyi sözün mənasını anlamır. Bu da təəccüb doğurmur. Çünki küçə "demokratı" siyasətin mənasını anlamır və elə özünə layiq də sərsəm bəyanatlar verərək, başını cəncələ salmaqla yanaşı, oturduğu "kresloya" da "əlvida!" deməyin ömrünü qısaldır.***



Bu yerdə N.Paşinyanın hələ deputat olanda, Ermənistan Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazanov parlamentdəki çıxışında bəyan etmişdi ki, "satqınlığın əsasında yalan durur. Və bu yalanı dilinə gətirən insan heç kimi yox, özünü aldadır". Daha sonra isə baş nazirin verdiyi bəyanatların və vədlərin yalan olduğunu təsdiqləyib. "Məsələn, Paşinyan deyirdi ki, vendetta olmayacaq - amma var. Paşinyan ümumi birlik vəd edirdi. Lakin cəmiyyəti "ağlara" və "qaralara" böldü. Məhəbbət və razılıq əvəzinə, nifrət aşılamağa başladı. Bundan əlavə, pensiyalarla bağlı artım olacağını bildirsə də, indi susmağa üstünlük verir. "Qırmızı xətlərə" qarşı çıxırdı - bu gün onlar mövcuddur. Baş nazir videokameralara qarşı çıxırdı - bu gün onlar hələ də qalır" deyə parlamentin keçmiş vitse-spikeri vurğulayıb. Əlavə edib ki, baş nazir dəfələrlə vəd edirdi ki, ölkəyə investisiya axını baş verəcək. Amma hazırda hər hansı real investisiyadan söhbət gedə bilməz. Bütün sahələrdə inkişaf olacağını bildirirdi. Bu vədin də puç olduğu üzə çıxır. Avropa İttifaqı ilə razılaşmanı təbliğ edirdi, indi isə, əksinə, onu tənqid edir. Avrasiya İqtisadi İttifaqı və Kollektiv Təhlükəsizlik üzrə Müdafiə Təşkilatına üzvlüyə qarşı çıxırdı. Bu gün isə, əksinə, bildirir ki, bu təşkilatlarda qalmaq, üzvlük vacibdir.

E.Şarmazanov başqa bir açıqlamasında hesab edir ki, Ermənistanın indiki rəhbərliyi hər sahədə əvvəlkindən geri qalır. Onun sözlərinə görə, indiki rəhbərlik, mütəmadi olaraq, cəmiyyəti müxtəlif düşərgələrə bölür: "Bundan əlavə, Paşinyan bu siyasəti tək Ermənistan daxilində deyil, eləcə də, Dağlıq Qarabağdakı rejimlə münasibətlərdə də nümayiş etdirir". E.Şarmazanov bu qənaətdədir ki, Paşinyan qisas hissi ilə alışıb yanır: "Əsas məramı separatçıların lideri Bako Saakyandan eksprezident Robert Koçaryanı dəstəklədiyinə görə qisas almaqdır. Bu cür siyasət isə Bakı və Ankaranın dəyirmanına su tökmək deməkdir".

E.Şarmazanov Paşinyanı separatçı qurumu danışıqlar stolu arxasına cəlb etməməkdə ittiham edib. Keçmiş vitse-spiker hazırkı baş nazirin verdiyi vədlərin heç birinin reallaşmadığına da işarə edib: "Paşinyan bildirir ki, ölkəmizdə demokratiya inkişaf edir. Siz Allah, deyin görüm, hansı demokratiyadan söhbət gedə bilər ki, baş nazir məhkəmə binalarını ələ keçirməyə, hakimlərin işinə mane olmağa çağırır. Baş nazir hər dəfə deyir ki, bizim hakimiyyətin dövründə ölkədə totalitarizm hökm sürürdü. Axı ancaq bizim hakimiyyət dövründə əvvəlcə deputat oldu, sonra isə baş nazir. Məgər totalitar rejimdə belə şeylər mümkün ola bilərdimi?" Daha sonra o, baş naziri iqtisadi inqilab, yüksəlişin baş verəcəyi barədə verdiyi vədləri də yerinə yetirməməkdə günahlandırıb. "Baxın görün, nə baş verir? İnvestisiyaların həcmi azalıb, müəssisələr bağlanıb, işsizlik yüksək həddə çatıb. Paşinyanın yaxın ətrafını nəzərə almasaq, insanların vəziyyəti əvvəlki təkidir".

### Paşinyanın ətrafı boşalır

Məlum olduğu kimi, Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin direktoru Artur Vanesyan və onun ardınca isə, Ermənistan Polisinin rəisi Valeri Osipyan tutduğu vəzifədən istefa vermələri, ardınca isə, iki baş müşaviri istefaya göndərməsi ölkədə yaranmış durumu daha da çətinləşdirib. Erməni mətbuatının məlumatına görə Arsen Qasparianı dərhal, Aram Qaribyanı isə sentyabrın 2-dən postunu tərk edib. Həmçinin, baş nazirin köməkçisi Mher Sahakyan da vəzifəsindən uzaqlaşdırılıb. Həmçinin, Ermənistan mətbuatının yazdığına görə, müdafiə naziri David Tonoyan da tutduğu postdan gedəcəyi də bildirilir.

### İşğalçı ölkənin baş naziri iflic olduğunu etiraf etdi

Bu günlərdə Ermənistan baş naziri Nikol Paşinyan "Feysbuk"da canlı yayım zamanı eks-prezident Serj Sarkisyan dönəminə aid olan məxfi sənəd haqqında danışarkən bildirib ki, sənəddə Ermənistanın institusional iflic vəziyyətində olduğu bildirilib.

N.Paşinyan onu da vurğulayır ki, əvvəlki illərdə olduğu kimi, 2019-cu il də Ermənistan üçün son dərəcədə ağır keçəcək.

Göründüyü kimi, işğalçı ölkənin baş naziri etiraf edir ki, əvvəlki illərdə olduğu kimi, 2019-cu il də Ermənistan üçün son dərəcədə ağır və məyusluqla dolu bir il olaraq qalacaqdır. Soruşmaq lazımdır: kimdir günahkar? Sözsüz ki, "küçə demokratı"nın uçuruma sürüklənən yararsız konsepsiyası.

Politoloqlar da ölkədə yaranmış bu vəziyyətin əsas günahı Paşinyanın hazırkı konsepsiyanın yararsız olmasında görür. Sözsüz ki, siyasi savadı olmayan küçədən ölkəyə baş nazir keçməsi, sonda bu nəticəni verməli idi.

### Ermənistanı bu günə kimi dələduzlar idarə edib

İşğalçı ölkənin bir sıra politoloq və təhlilçiləri bildirirlər ki, Ermənistana rəhbərlik edənlərin hamısı eyni səviyyəli dələduzlardır. 2016-cı il aprel savaşı Ermənistan ordusundakı böyük qüsurları ortaya çıxardı və hakimiyyətə gələn Nikol Paşinyan da bu qüsurları etiraf etmək məcburiyyətində qaldı. Ermənistanın təhlükəsizlik konsepsiyası 2007-ci ildən bu yana dəyişdirilməyib. Yeni konsepsiyanın ana istiqamətlərini Paşinyanın yeni təyin etdiyi Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan təqdim edib.

Ermənistanın bir sıra təhlilçilərinin sözlərinə görə, ölkə daxilində sosial-iqtisadi sahədə hələ də sanballı uğurların gözə dəyməməsi, immiqrasiya əvəzinə, emiqrasiyanın güclənməsi, son vaxtlar isə hökumətə qarşı, üstəlik, açıq etirazların baş qaldırması və ilk dəfə etirazçıların qanının tökülməsi Paşinyan iqtidarını, istər-istəməz, ictimai diqqəti daxildəki problemlərdən yayındırmaq zorunda qoyur.

Təəssüf doğuran odur ki, Ermənistanın baş naziri Paşinyan populist çıxışları və savadsız siyasi baxışları ilə, elə zənn edir ki, bəlkə bu yolla nəyəsə nail ola biləcək. Bu isə, bir daha göstərir ki, düşmən ölkə Azərbaycana işğala son qoymaq üçün savaş yolundan başqa bir yol buraxmır. İndiyə qədər Azərbaycan tərəfi gözləyirdi ki, beynəlxalq qurumların təzyiqi ilə Ermənistan rəhbərliyi işğal olunmuş torpaqlarla bağlı öz "siyasətində", danışıqlar prosesində daha konstruktiv mövqe tutacaq. Amma bu, baş vermir. Məhz buna görə də, Azərbaycan Prezidenti İlham Əliyev Qarabağla bağlı öz qətiyyətini və ciddiliyini ortaya qoyaraq, bir daha xəbərdarlığını edir.

### Paşinyanın debil sərsəm və işğalçı siması

Göründüyü kimi, Ermənistanın baş naziri Nikol Paşinyanın verdiyi açıqlamalar və ümumilikdə, əndrəbadi siyasi "manevrləri" onun çox gerizəkalı olduğunun göstəricisidir. Bu fikri, ona görə deyirik ki, bu boşboğaz baş nazirin Azərbaycanın işğal olunmuş ərazisində Dağlıq Qarabağda ümumerməni oyunları kimi avantürist tədbirlərə qatılaraq, orada "Qarabağ Ermənistanındır, nöqtə" deməsi Ermənistanın daha tez uçuruma yuvarlanmasına təkan verdi. Çünki bütün dünya dövlətləri, o cümlədən, beynəlxalq siyasi və hüquqi təşkilatlar Dağlıq Qarabağı Azərbaycan ərazisi kimi tanıyırlar. Bu isə, beynəlxalq hüquq normalarına əsaslanır, enyi zamanda, BMT-nin də işğal edilmiş Azərbaycan ərazilərinin dərhal və qeyd-şərtsiz azad olunmasına dair məlum dörd qətnaməsi, aydın şəkildə göstərir ki, Ermənistan işğalçıdır və Azərbaycanın işğal altındakı torpaqlarını azad etmək qaçılmazdır. Və Paşinyanın böyük qələti olan "Qarabağ Ermənistanındır, vəssalam, nöqtə" sərsəm bəyanatının bədəli də böyük oldu.

### Paşinyanın böyük qələtinə Azərbaycan Prezidentinin "NİDA!" cavabı Nikolu nokaut etdi

İşğalçı və quduzlaşmış Paşinyan "Qarabağ Ermənistanındır, vəssalam!" böyük qələtinə Azərbaycan Prezidentinin "NİDA!" cavabı Nikolu, nəinki öz ölkəsində, hətta bütün dünya siyasətçiləri, prezidentləri səviyyəsində cavab olmaqla yanaşı, həm də dünyadakı erməni havadarlarına da bir "düz yola gəlin" mesajı idi və bununla, dövlət başçısı bu məsələni bir daha təkrar çatdırdı: Azərbaycan torpaqlarının Ermənistan işğalından azad edilməsi bütün tərəflər üçün qəbuledilməndir".

Ancaq səbatsız və sərsəm Paşinyan hələ də "nida"nı anlaya bilmir, anlasa da, artıq gec olacaq. Bir məqamı da qeyd edək ki, vasitəçilər də torpaqların işğaldan azad edilməsinin başlıca məsələ olduğunu bilirlər. Sadəcə olaraq, problemin həlli üçün onların ayrı-ayrı açarları mövcuddur və bu açarlarla onlar bir-birinin qıfılını aça bilmirlər. Məhz Paşinyanın anlamazlığının real cavabı "Qarabağ Azərbaycanındır və nida işarəsi" ifadəsi Paşinyanın onurğasına vurulan ağır bir zərbə olaraq, birdəfəlik "nokaut" halına düşməsidir. Ən maraqlı məqam isə, Azərbaycan Prezidenti Qarabağ həqiqətini dünyaya Rusiya prezidenti Vladimir Putinin də dinləyicisi olduğu auditoriyadan bəyan edirdi. Çıxışdan bir gün qabaq isə, Rusiya xarici işlər naziri Sergey Lavrov Nikol Paşinyanı "Qarabağ Ermənistanındır və nöqtə" fikrinə görə qınamış, belə mövqeyin sülh prosesinə fayda gətirmədiyini bildirmişdi.

Lakin rəsmi Moskva İlham Əliyevin analoji bəyanatına, daha doğrusu, kontr-cavabına ("Qarabağ Azərbaycanındır və nida işarəsi!") heç bir neqativ reaksiya bildirmədi. Bu da məntiqlidir. Çünki dünya birliyi, o cümlədən, Rusiya Azərbaycanın ərazi bütövlüyü prinsipini dəstəkləyir və Ermənistan işğalçı kimi göstərilib.

Bu yerdə bir məqamı da vurğulamaq yerinə düşər. Yeri gəlmişkən, Azərbaycan Prezidenti bu günlərdə Qobuda köçkün qəsəbəsinin açılışı zamanı etdiyi çıxışında, bir daha Soçidəki tezisi təkrarlayıb. Bildirib ki, sülh danışıqlarında Azərbaycanın ərazi bütövlüyü heç vaxt müzakirə mövzusu olmayıb, olmayacaq. "Dağlıq Qarabağ Azərbaycanındır, nida işarəsi. Vəssalam" deyə Prezident İlham Əliyev əzəli torpaqlarımızda ikinci saxta erməni dövləti qurmaq sevdası ilə yaşayan ermənilərin arzusunu həmişəlik basdırıb. Və oktyabrın 11-də Türkmənistanın paytaxtı Aşqabad şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə keçirilən iclasında Azərbaycan Prezidenti İlham Əliyev tutarlı və diplomatik çıxışı isə Ermənistanın baş naziri Nikol Paşinyana növbəti sərt şillə oldu. Dövlət başçısı çıxışında ölkəmizin faşizm üzərində qələbə qazanmasında müstəsna xidmətləri barədə danışaraq, toplantı iştirakçılarının diqqətinə çatdırıb ki, faşizm üzərində qələbəyə Azərbaycan layiqli töhfə verib. Altı yüz mindən çox azərbaycanlının Böyük Vətən Müharibəsində döyüşdüyünü və onların yarısının canlarından keçdiyini vurğulayan Prezident, yüksək tribunadan cəbhə üçün çox zəruri olan yanacağın çox hissəsinin Azərbaycanın payına düşdüyünü qeyd edib. Ermənistanda faşizmin təbliğatının aparıldığını, faşizmə xidmət edən şəxslərin xatirəsinə abidə ucaldılmasının qəbuledilməz olduğunu təəssüflə iclas iştirakçılarının diqqətinə çatdıran Prezident İlham Əliyev 2016-cı ildə Ermənistanın İrəvanın mərkəzində Böyük Vətən Müharibəsində faşistlərə yardım etmiş Qaregin Njdeyə abidənin ucaldıldığını deyib. Vurğulayıb ki, Ermənistanın baş naziri həddindən artıq səriştəsiz, savadsız və populist siyasətçidir. Məhz bu savadsızlığın nəticəsidir ki, Nikol Paşinyan "Valday Nidası"ndan ayılmamış, "Aşqabad şoku"nun təsirinə düşdü. Erməni mətbuatının yazdığına görə, "Valday" nokautundan sonra Azərbaycan Prezidenti bu dəfə Türkmənistanda da, MDB-nin sammitində N.Paşinyanı çıxılmaz vəziyyətə saldı.

Sözsüz ki, təcrübəsiz siyasətçi belə də edərdi: dərhal emosional bir cavab verər və bununla da, kifayətlənərdi. Ancaq Paşinyan küçədə etdiyi çıxışlarını baş nazir kürsüsündə də etməklə, özünü "güclü siyasətçi" hesab etsə də, nəticədə, Azərbaycan Prezidenti İlham Əliyev diplomatiyası qarşısında ağır zərbəyə məruz qaldı.

Beləliklə, bu faktlar bir daha göstərir ki, Paşinyanın yürütdüyü siyasət qeyri-adekvatdır. Onun atdığı addımlar da peşəkar siyasətçiyə yaraşmır. O, ümumi siyasi prinsiplərə zidd olan addımlar atmaqda davam edir. Əsas məqam odur ki, Prezident İlham Əliyev çox mühüm yüksək səviyyəli siyasi, peşəkar çıxışı ilə Ermənistanın həm Azərbaycanın ərazi bütövlüyü, həm də MDB məkanına aid olan digər istiqamətlərlə bağlı yürütdüyü siyasətin çox geridə qalmış və heç bir arqumentə söykənmədiyini bir daha əsaslandırdı. Bu, Prezidentin Paşinyan üzərindəki növbəti üstün həlledici zərbəsi, daha dəqiq desək, sərt şillə oldu.

Və hər dəfə Paşinyanın sərsəm bəyanatları, xüsusilə də, sonuncu böyük qələti olan "Qarabağ Ermənistanındır, vəssalam!" sərsəm bəyanatının bədəlinə cavab "NİDA!" olmalı idi. Məhz Ermənistanın son günlərdəki durumu onu bir daha göstərir ki, Ermənistanda inkişaf və sabitlik Dağlıq Qarabağ münaqişəsi həll edilməyənə qədər bərqərar olmayacaq. Çünki bu dövlətin gələcəyi Azərbaycanla qonşuluq prinsiplərinə əməl etməkdən keçir. Və Paşinyan da sələfləri kimi, səbəbi qoyub nəticələrlə uğursuz mübarizə aparmamalıdır. Çünki yekun eyni olacaq, daha dəqiqi, daha pis... Və Ermənistan da bu reallığı anlamalıdır ki, inkişaf və sabitlik Dağlıq Qarabağ münaqişəsi həll edilməyənə qədər bərqərar olmayacaq!!!

***A.SƏMƏDOVA***

# Əli Kərimli erməni lobbisinin sifarişini yerinə yetirir

***Bir daha AXCP sədri Əli Kərimli və ətrafı xarici qüvvələrin əlaltıları olduqları təsdiqləndi. "Milli Şura" - AXCP Bakı şəhərinin mərkəzində icazəsiz aksiyalar keçirməyə və qarşıdurma yaratmağa cəhd etdilər. Söhbət etdiyimiz müsahiblərimiz Ə.Kərimlinin və onun havadarlarının ölkədəki, ictimai-siyasi sabitliyi pozmağa cəhd etmələrini onların növbəti təxribatlara cəhdləri olduğunu bildirdilər.***

### "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov: "Əli Kərimli kimilər yaramaz və çirkin əməllərindən əl çəkmirlər"



- Hər zaman olduğu kimi, yenə də müxalifət düşərgəsini təmsil edən şəxslər anormal vasitələrdən yararlanmağa çalışırlar. Onların məqsədi Azərbaycanda qarışıqlıq salmaqdır. Amma heç vaxt müxalifət düşərgəsini təmsil edən şəxslərin və Əli Kərimlinin ölkəmizlə bağlı məkrli planı baş tutmayacaq. Çünki xalqımız yaxşını pisdən ayırmağı bacarır və müxalifətin də iç üzünü onlardan yaxşı bilir. Təbii ki, Azərbaycan dövlətini istəməyən qüvvələr mövcuddur. Hər zaman xarici qüvvələr ölkəmizin inkişafına qısqanclıq hissi ilə yanaşıb. Ölkə müxalifəti həmin xarici qüvvələrlə əlaqələr qurur və ölkəmizdə xoşagəlməz hadisələr yaratmağa çalışır. Ona görə də, xarici qüvvələr Azərbaycanda olan müxalifət qüvvələrindən istifadə edərək, özlərinin istəklərini həyata keçirmək istəyir. Bu gün radikal müxalifət düşərgəsini təmsil edən şəxslər və Ə.Kərimli nə qədər icazəli və icazəsiz aksiyalar keçirsələr də, heç vaxt məkrli niyyətlərinə nail ola bilməyəcəklər. Çünki xalq bunları dəstəkləmir və dəstəkləməyəcəkdir. Bu reallığı müxalifətin özü də çox gözəl bilir. Amma Ə.Kərimli kimi yaramazlar öz çirkin əməllərindən əl çəkmirlər.

### Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, SİM İB-nin sədri Anar Xəlilov: "Dövlətimizin düşmənləri təxribatdan, hiylədən və məkrdən bəhrələnir"

- "Milli Şura" adlanan qurumun oktyabrın 19-da Bakı şəhərində icazəsiz aksiya keçirməyə cəhd göstərərək, təxribat törətməsinin arxasında onların havadarlarının sifarişini yerinə yetirməsinə xidmət edirdi. Əlaqədar dövlət orqanlarının ,bununla bağlı əvvəlcədən etdiyi xəbərdarlığa əhəmiyyət verməyən bu insanlar öz niyyətlərini həyata keçirməyə cəhd etməyə çalışsalar da, bunun qarşısı yüksək peşəkarlıqla alındı. Qanunun tələblərinə uyğun addımlar atılaraq, təxribatın qarşısı alındı. Məqsəd aydın idi siyasi mübarizədə xalqın dəstəyindən məhrum olan ötən 26 ildə öz nüfuzunu itirən AXCP gündəmi saxlamaq, vücudlarını qorumaq, aldıqları maliyyə yardımlarının hesabatlarını bağlamaq naminə ölkədə ictimai-siyasi sabitliyi zorla pozmağa çalışaraq, bu tip qanunsuz aksiyalar keçirməyi planlaşdırırlar. Lakin onların bu planları elə düşünüldüyü andan iflasa məhkumdur. Xalqın əksəriyyətinin dəstəyindən məhrum olan bu qurum, eyni zamanda, unudur ki, bu gün Azərbaycan dövləti güclüdür, onun rəhbərini daxili və beynəlxalq nüfuzu çox yüksəkdir. Bunu artıq biz dünyanın ən aparıcı beyin mərkəzlərinin reytinq cədvəllərində görürük. Azərbaycan bu gün dünyada stabil və yüksək templə inkişaf edən bir ölkədir. Eyni zamanda, Azərbaycan bu gün beynəlxalq aləmdə etibarlı bir ölkə imicini qazanmışdır. Xalqımız təxribata qarşı dövlətin yanında yer almalı buna qarşı sərt



fikrin bildirməlidir. Nəzərə almaq lazımdır ki, dövlətimizin düşmənləri təxribatdan, hiylədən və məkrdən bəhrələnir. Bu baxımdan, bizlər daim diqqətli olmalıyıq. Vətəndaş cəmiyyəti nümayəndələri, KİV-lər bu istiqamətdə fəaliyyətini artırmalıdır. Sosial şəbəkələrdə şüar və reklam xarakterli fikirlər bildirməklə vəzifəmizi bitmiş hesab etməməliyik. Cənab Prezidentimizin başladığı islahatların mahiyyətindən çıxış etməli və Onun xalqın rifahına hesablanmış siyasətini xalqa çatdırmalıyıq. Bəzi məmurlarımız da Cənab Prezidentin də qeyd etdiyi kimi xalqın qulluqçusu olduqlarını bir daha yada salmalı, pis əməllərdən çəkinməlidirlər. Nəzərə almaq lazımdır ki, bu qüvvələr istənilən bir səhvi, diqqətsizliyi şişirdərək, şouya çevirirlər. Qətiyyən buna yol vermək olmaz.

### QHT.az saytının rəhbəri, "İnformasiya Təşəbbüslərinə Dəstək" İctimai Birliyinin sədri Cəsarət Hüseynzadə: "Əli Kərimli təxribatla məşğul olur "




- "Milli Şura" adlanan qondarma qurum müvafiq icra hakimiyyəti orqanlarına sərbəst toplaşmaqla bağlı müraciət etdi və bu müraciətə müsbət cavab verildi. Amma dağıdıcı ünsürlər Lökbatanda deyil, şəhərin mərkəzində, əhalinin gur gedib-gəldiyi yerlərdə aksiya keçirmək istəyində olduqlarını bildirdilər. Bunların sosial bazası yoxdur. Sosial bazası olan bir siyasi qrup üçün yerin önəmi əsas deyil. Onlar istənilən yerdə öz sözlərini deyə bilərlər. Ancaq bunların toplaşmaq istədikləri yer elə bir yerdir ki, orda hər hansı bir aksiyanın keçirilməsi mümkündür, həm də təhlükəsizlik baxımından. "28 May" metrosu həm yeraltı, həm də yerüstü qovşaqdır. Qanunvericiliyə görə, aksiyalar metro stansiyalarından 200 metr kənarda keçirilməlidir. Ümumiyyətlə, AXCP sədri Ə.Kərimli yaşadığı evin qarşısından icazəsiz aksiyaya qoşulduğu kimi, təxribatla məşğul oldu. İnsanları qeyri-qanuni olaraq, aksiyaya qoşulmağa çağırdı. Amma xalqımız Ə.Kərimlini və həmin düşərgədə təmsil olunanları qətiyyətlə rədd etdi.

### ADİİM-in sədri "Avrasiya" İA-nın baş redaktoru Cavid Şahverdiyev: "Əli Kərimlinin fikri və özü azad deyil, o, Qərb tərəfindən girov götürülüb"



- Antimilli Şura və Əli Kərimlinin əsas məqsədi Bakının mərkəzində iğtişaş və qarşıdurma yaratmaq idi. Kərimli hərəkətləri ilə əsl şou göstərdi və kimliyini bir daha ortaya qoydu. "Milli Şura" adlanan qurum üç gün bundan əvvəl Daxili İşlər Nazirliyinin qanunsuz hərəkətlərin qarşısının qətiyyətlə alınacağına dair xəbərdarlığına əhəmiyyət verməyərək, oktyabrın 19-da "Bakı metropoliteti"nin "28 May" metrostansiyasının önündə qanunsuz aksiya keçirib. Baxmayaraq ki, Bakı Şəhər İcra Hakimiyyəti mitinqin Bakı şəhəri, Lökbatan qəsəbəsi, 28 May küçəsi, "Neftçi" idman klubunun Qaradağ təlim-idman bazasında keçirilməsinə razılıq vermişdi. Lakin Ə.Kərimli və onun dəstəsi ictimai asayişi pozmaq, qarşıdurma yaratmaq məqsədilə aksiya öncəsi metrostansiyanın "28 May" stansiyasının önündə qanunsuz aksiya keçirilməsinə çağırışlar edib. Qeyd edək ki, "Sərbəst toplaşmaq azadlığı" haqqında qanunun 9-cu maddəsinin 3-cü hissəsinin 2-ci bəndinə əsasən, metropoliten mühafizə zonalarında toplantıların keçirilməsi qadağan edilir. Radikal müxalifətin hər belə çağırışları öncəsi DİN və Baş Prokurorluq xəbərdarlıq edib ki, hüquq-mühafizə orqanları tərəfindən qanunsuz əməllərin qarşısı qətiyyətlə alınacaq. Qeyd olunub ki, qanunun tələblərini pozan şəxslər barəsində, cinayət məsuliyyəti də daxil olmaqla, qanunvericilikdə nəzərdə tutulmuş ən ciddi tədbirlər görüləcək. Lakin radikal müxalifətin liderləri həmişə qanunun aliliyinə hörmət etməyərək, gəncləri, qadınları önə verərək, polislərin onlara zor tətbiq etmələrinə şərait yaradıblar. Amma özləri qaçıb gizləniblər. Bütün bunlar, icazəsiz aksiya iştirakçılarına yaxşı məlum olsa belə, onlar qarşıdurmaya getmək planlarını işə salmağa cəhdlər etdilər. Hadisələr, onu deməyə əsas verir ki, Ə.Kərimli və dəstəsinin icazəsiz aksiya keçirməsi özlərinin yox, Qərbin anti-Azərbaycan və ermənipərəst donorlarının sifarişidir. Ə.Kərimli heç vaxt iradəsi ilə hərəkət etməyib, ancaq və ancaq sifariş yerinə yetirib. Oktyabrın 19-da olan icazəsiz aksiya da bu sifarişlərdən biri idi. Əli Kərimli bu dəfə də özünü biabır etdi. Təbii ki, dünyanın hər yerində, elə demokratiyanın beşiyi sayılan Avropa ölkələrində də icazəsiz aksiyalar polislər tərəfindən dağıdılır. İcazəsiz mitinqdə aksiya iştirakçıları "Konstitusion hüquqlarımız pozulur", Ə.Kərimlinin özü isə "azadlıq" deyə qışqırırdı. Qanunun aliliyinə hörmət göstərməyənlər hansı haqla hüquqdan danışırlar? AXCP sədri kimə, nəyə azadlıq istəyir? Ə.Kərimli azad bir vətəndaş olmasaydı, Bakının mərkəzində bu şüarı səsləndirməzdi, övladları Avropada rahat və maneəsiz yaşamazdı, ətrafında cangüdənlər gəzdirməzdi. Azadlıq kəlməsi Ə.Kərimli üçün yaddır. Ə.Kərimlinin təfəkkürü, düşüncəsi, fikri və özü azad deyil, o, Qərb tərəfindən girov götürülüb.

***GÜLYANƏ***

## Yalan ifadə verməkdən imtina edənlər Ermənistanda işdən qovulur

Qriqori Ayrapetov Robert Koçaryana qarşı ifadə verməkdən imtina etdikdən sonra vəzifəsindən azad edilib. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata isyinadən xəbər verir ki, bu barədə "Past" qəzeti yazır.



Qəzet öz mənbələrinə istinadən yazır ki, Dövlət Təhlükəsizlik Xidmətinin keçmiş rəisi general Qriqori Ayrapetovun işdən çıxarılmasının əsas səbəbi 25 sentyabr 2001-ci il tarixində "Araqast" kafesində Poqos Poqosyanın öldürülməsi ilə bağlı cinayət işinin açılması olub. Nəşrin mənbəyinə görə, Ayrapetova bu işlə əlaqədar olaraq, o vaxtkı hadisələri "xatırlamaq" və prezident Robert Koçaryanın Poqosyanı döymək əmrini verməsi barədə ifadə vermək təklifi olunub.

"Past" qəzeti özünün etibarlı mənbələrinə istinadən yazır ki, Ayrapetov bu təklif olunanı rədd edərək, bunun həqiqətə uyğun olmadığını bəyan edib. Mənbənin məlumatına görə bunu təklif edən şəxs yeni hakimiyyətin onunla yaxşı rəftar etməsi, təbliğ edilməsi və general rütbəsi verməsi ilə onu dilə tutmağa çalışsa da, ancaq Ayrapetov, bu cür yalan ifadələri verməkdən imtina edərək, siyasi qarşıdurmalara onu qarışdırmamağı xahiş edib. Məlumatda o da qeyd olunur ki, düşünmək üçün ona vaxt verilsə də, bir müddətdən sonra xəbərdarlıq belə etmədən işdən çıxarılması barədə əmr imzalanıb. Göründüyü kimi, yalan ifadə verməkdən imtina edən məmur Ermənistanda işdən qovulur və onun özü də hədəfə çevrilir. Hazırda Paşinyan hakimiyyətinin siyasi taktikası ona tabe olmayanlardan yaxa qurtarmaq və ümumiyyətlə onları hakimiyyətdən, postdan uzaqlaşdırmaqdır.

## Osipyanın kadrları Paşinyan hakimiyyətinin hədəfində

Valeri Osipyanın kadrları Ermənistanın yeni hakimiyyətinin qərarı ilə işdən uzaqlaşdırılır. SİA bunu Ermənistana məxsus "Qraparak" qəzetinə istinadən xəbər verir. Qəzet yazır ki, son günlər polisdə intensiv kadr dəyişiklikləri baş verir. Nəşrin mənbələri Valeri Osipyan tərəfindən bu vəzifəyə təyin olunan polis daxili təhlükəsizlik şöbəsinin müdiri Robert Smbatyanın artıq vəzifəsindən azad edildiyini bildirib.

Bir qayda olaraq, bu vəzifəyə polis rəisinin ən etibarlı adamları təyin olunur və polis rəisi istefa verdikdə daxili təhlükəsizlik şöbəsinin müdiri də uzaqlaşdırılır. Ötən şənbə günü Qeqarkunik və Vayots Dzor bölgələrinin şöbə müdirləri vəzifələrindən azad edilib və bu günə qədər yerləri hələ də boşdur. Bəzi məlumatlara görə, polis rəisi Arman Sarkisyan özündən əvvəlki polis rəisinin kadrlarından yaxa qurtarmağı və "özününkü" hesab etdiyi adamları əsas vəzifələrə təyin etməyi planlaşdırıb. Bir neçə gün əvvəl "köhnə" kadrlardan biri, Araqasotna da vəzifəsindən azad edilib və yerinə isə A.Sarkisyanın öz tələbə yoldaşı Vaan Axqaşyan təyin edilib. Məlumata görə, Syunik bölgəsinin polis rəisi Qevork Azizyan da onun sinif yoldaşıdır.

# Əli Kərimli - xəyanət xronologiyası

## Qərbə satılan iblis xislətli satqın

***Dünyada elə insanlar var ki, gördükləri işlərə görə, onlara, ya rəhmət, ya da lənət oxuyurlar. Kimdir onlar: insan, yoxsa iblis? Azərbaycan müxalif partiya sədrlərinin, xüsusilə də, AXCP sədri Ə.Kərimlinin xəyanət xronologiyasına nəzər salsaq, suallara açıq şəkildə cavab tapmaq olar.***

Bu yerdə parlamentin bu günlərdə keçirilən iclasında Milli Məclis spikerinin müavini Zəyafət Əsgərov satqınlıq və xəyanət "titul" AXCP sədri Ə.Kərimlinin kimliyini faktlarla açıb göstərib.

### "Əli Kərimli, sən onsuz da, hər şeyini itirmisən"

"İnsanların xəyanət xronikasına baxdıqda, adamı dəhşət bürüyür. Yəni bu illər ərzində, doğrudanmı bu insanlarda bir qram da olsun, inkişaf yoxdur? Nə mütaliə, nə dünyanı dərk etmək, nə dövlətçilik anlayışı var. Bu illər ərzində, siz nə işlə məşğul olmusunuz?"

Hörmətli Ziyafət müəllim, siz də bilirsiniz ki, Ə.Kərimli anadan elə iblis xisləti ilə doğulub və bu günə kimi də satqınçılıq və riyakarlıqla məşğul olub. Məqsədi də sifarişçilərindən daha çox pullar qazanmaqdır.

Z.Əsgərov sual edir və bu qanmazlara bir çox məsələləri qandırmaq istəyir: "1966-cı il 16 oktyabrda "Mülki və Siyasi Hüquqları haqqında" Pakt qəbul olunub. İnsan Hüquqları və Əsas Azadlıqlar Haqqında" Avropa Konvensiyası 4 noyabr 1950-ci ildə qəbul edilib. Paktda qeyd olunub ki, sərbəst toplaşmaq azadlığı beynəlxalq pakt tərəfindən tanınır. Sərbəst toplaşmaq azadlığı yalnız qanunda nəzərdə tutulan və demokratik cəmiyyətdə zəruri olan hallarda, milli və ictimai təhlükəsizlik mənafeləri üçün iğtişaşların və ya cinayətlərin qarşısının alınması, sağlamlığın və mənəviyyatın digər şəxslərin hüquq və azadlıqlarının qorunması üçün məhdudlaşdırıla bilər. Soruşuram, Ə.Kərimli, C.Həsənli, T.Yaqublu, siz bunları bilmirsiniz? Çox yaxşı bilirsiniz! Qəsdən bu əməlləri törədirsiniz ki, Azərbaycanda iğtişaşlar olsun, ara qarışsın 1992-ci ildə etdiyiniz kimi".

### Ə.Kərimlinin "bulanıq suda balıq tutmaq istəyi"...

AXCP sədrinin məqsədi həmişə belə olub: "bulanıq suda balıq tutmaq". Ə.Kərimliyə nə qədər sual verilirsə-verilsin bu sualın bir cavabı var: ölkədə qarşıdurma yaratmaq üçün şəhərin mərkəzində mitinq keçirmək adı ilə qarşıdurma olmalıdır, hakimiyyətin üzərinə getməlidirlər. Z.Əsgərovun yerində və tutarlı cavabı: "Sən kimsən ki, hakimiyyətin üzərinə gəlmək istəyirsən. Bir qrup adamın şıltaqlığına görə, milyonlarla insanın hüquqlarını tapdalamalıyıq? Sənin hüququn varsa, mənim də hüququm var. Sənin toplaşmaq azadlığı hüququn var, mənim də istirahət etmək hüququm var. Dövlətimi müdafiə etmək hüququm var. Dövlətin hüquq-



mühafizə orqanları nə etməlidir?"

Z.Əsgərov Ə.Kərimlinin və onun ətrafındakıların casusluqla məşğul olduğunu da deyib: "Avropadan səslər gəlir. Avropa İttifaqından, Avropa Şurasından deyirlər ki, məsələni araşdırın, məlumat verin. Əvvəla, bizimlə diqtə dilində danışmaq olmaz, gedin Londonda, İspaniyada, Berlində, Parisdə demokratiya adına olan biabırçılıqları araşdırın, sonra bizimlə söhbət edərsiniz. Biz yolumuzu özümüz könüllü seçmişik, hara getdiyimizi çox yaxşı bilirik, məsələləri də özümüz araşdırırıq, kimin günahı varsa, cəzasını alacaq, günahı olmayan azad olunacaq. Azərbaycan dövlətini, dövlətçiliyini, Prezident İlham Əliyevi göz bəbəyi kimi qoruyacağıq. Ulu Öndər Heydər Əliyev bu dövlətin fundamentini 12 ballıq zəlzələyə hesablayıb. Daha bu xülyalardan əl çəkin, 1990-cı illər getdi, vallah, getdi. Gənclərə yazığınız gəlsin. Buraxın, təhsillərini davam etdirsinlər, elmlə məşğul olsunlar, bəlkə, doğrudan da, yaxşı elm adamları olacaqlar. Niyə onların vaxtını alırsınız. Ə.Kərimli, sən onsuz da, hər şeyini itirmisən, keçmişin, bu günün, gələcəyin məhv olub, gənclərə yazığınız gəlsin".

### İblis xislətli Əli Kərimli

Ə.Kərimlinin xəyanətlərinə kifayət qədər bələd olan KXCP sədri Mirmahmud Mirəlioğlu "Yurd"un fəaliyyətində baş verən hadisələrə, birmənalı olaraq, "antielçibəyçilər hərəkatı" adını verib. O, xatırladıb ki, məhz "Yurd" qrupu AXC daxilində fəaliyyətə başlayarkən, AXCP-nin mərhum sədri Elçibəy buna xeyir-dua verməmişdi: "Elçibəyin başlanğıc üçün xeyir-duası olmadığına görə, sonrakı dövrlərdə çox şeylər baş verdi. Bu məsələ Elçibəyin iştirakı ilə keçirilən qurultayda pik nöqtəsinə çatdı. Qurultaydan bir neçə gün sonra ciddi məsələlər çıxdı ortaya. Sonradan isə, bəlli oldu ki, fondun pulları, məhz Elçibəyə qarşı təbliğata xərclənib".

M.Mirəlioğlu Ə.Kərimlinin xarici kəşfiyyat orqanlarına satılmış adam olduğunu da bildirib: "Xatırladım ki, Azərbaycanda Demokratiyanın İnkişafı Fondu var idi. Həmin fondun Qərbdə və ABŞ-da olan nümayəndələri etiraf edirdilər ki, fondun pulları təyinatı üzrə xərclənməyib. Yəni həmin pulların böyük əksəriyyəti Elçibəyin əleyhinə xərclənib".

### Elşən Musayev: "Əli Kərimli Qərbə çoxdan satılıb"

Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayev bildirib ki, Ə.Kərimli fəaliyyəti boyu həmişə Qərb üçün alqı-satqı obyekti olub. Onun sözlərinə görə, Əli Kərimli bütün siyasi fəaliyyəti boyunca, ancaq satılmaq işinə baxıb: "Ə.Kərimli ancaq alqı-satqı cəmiyyəti qurub. Bu şəxsin mahiyyəti və xisləti məhz Qərbə satılmağa köklənib. Ə.Kərimlini Azərbaycan daxilində heç kim saymasa da, o, bir çox beynəlxalq təşkilatların və qurumların əlində həmişə oyuncaq olub. Həmişə Azərbaycan dövlətinə qarşı çıxıb. Lakin bunu Azərbaycan hakimiyyətinə qarşı çıxmaq kimi ifadə edib. Bu gün hər şey ortalıqdadır. Artıq seçki dövrünün start götürülməsinə baxmayaraq, bu adam hələ də çayxana söhbətləri edir. Bu səbəbdəndir ki, onun ətrafında Qəddafiyə oxşayan Gözəl Bayramovadan, Azərbaycan iqtidarına xəyanət edən Gültəkin Hacıbəylidən və boş-boş danışan F.Qəhrəmanlıdan başqa heç kimsə qalmayıb".

E.Musayev Gültəkin Hacıbəylinin yazısını oxuduğunu bildirir və burada yazılanları şərh edir: "Orada yazılıb ki, Ə.Kərimlini satın almaq lazımdır. Bu insan "mübarizə aparmaq" ifadəsi yerinə "satın almaq" ifadəsini işlədir. Yəni bu insanlar ancaq bazar jarqonu ilə danışırlar. G.Hacıbəyli alınıb-satılmağı gözəl bilən adamdır. Çünki vaxtilə Azərbaycan iqtidarını bizdən daha yaxşı müdafiə edib. Deməli, o, bunu mandata, mövqeyə və statusa sahib olmaq üçün edib. Mən özümə borc bilərək, ona və cəmiyyətə bu mesajı vermək istəyirəm ki, Əli Kərimli heç kimə lazım deyil.

### Qozbeli qəbir düzəldər

Ancaq Ə.Kərimlini nəinki qəbir, heç fələk də düzəldə bilməz. Çünki bünövrəsi əyri olanı, ancaq birdəfəlik istifadə olunmuş əşya kimi zibilliyə atmaq lazımdır. Ancaq Ə.Kərimli 19 oktyabra təyin etdikləri aksiya ilə bağlı çağırış edərək, hamını küçələrə səsləyir, razılaşdırılmamış ünvana çağırır. Bilə-bilə ki, polis qanunsuz aksiyaya imkan verməyəcək, bilə-bilə ki, dəyənəklər işə salınacaq, yenə də insanları təxribata çəkir, polis qüvvələri ilə üz-üzə qoymağa çalışır. Deyir ki, sizi tək qoymayacam, mən də yanınıza gələcəm. 2005-ci ildə də belə demişdi: "Yanınıza gəlirəm". Elə bununla da, məhv elədi hər şeyi. Oktyabrın 11-nə təyin olunan razılaşdırılmış piketə də yanlarına gələcəyini deyirdi, ancaq gördün deyən olmadı. Bununla da, təkcə aksiya iştirakçılarını qurban vermədi, ümumən, müxalifətin tifağını dağıtdı.

Ona görə də, tarix heç vaxt bölənləri və bölücülük edənləri bağışlamır. Siyasət də bu qızıl qanundan heç də fərqlənmir.

Bu yerdə mərhum Əbülfəz Elçibəyin söylədiyi "Əli Kərimli mənim yox, millətin düşmənidir" deməsi bir daha, onun bəd əməllərini millətə, xalqa və dövlətə xəyanət adlandırıb. Və bu gün ümummilli məsələləri öz şəxsi ambisiyalarına qurban verən Ə.Kərimlinin gəncləri mitinqə çağırması, onun Azərbaycan gəncinin qanına susamış əsl düşmən və Vətən xaini olduğunu göstərir. Artıq Əli Kərimli və onun tərəfdarlarının Azərbaycanın milli maraqlarına zidd, ermənipərəst fəaliyyətinə son qoymağın vaxtı çoxdan çatıb. Cəzasızlıq isə, onun dövlətçilik maraqlarımız qarşısında daha da quduzlaşmasına səbəb olur. Ə.Kərimli kimi şəxsi ambisiyasını güdən populistlərə, avantüraçılara və antimilli ünsürlərə bundan sonra da meydan verməməli və onların barəsində sərt ölçü götürülməlidir. O, həbs olunmalı, layiqli cəzasını almalı, ən yaxşı halda isə, ölkə hüdudlarından çıxarılmalıdır. Beləlvalərinə Azərbaycanda yer yoxdur!

***Rəfiqə HÜSEYNOVA***



## 25 il çənə müxalifətinin xisləti

**RƏFİQƏ**

Qəribə sözdür? Bəlkə də... Ancaq 25 ildir ki, müxalifətin çənəsi dayanmaq bilmir. Elə boş-boş hay-küy salaraq, həyasızcasına və utanmadan kütləvi aksiyalar keçirməklə çənələrinə güc verirlər. O çənə, bir də görürsən, çıxır yerindən. Ancaq o qədər həyasızdırlar ki, çənələri çıxanda, başlayırlar əl-qol atmağa. Oturub bir anlığa müxalifət düşərgəsinin keçidiyi uğursuz və biabırçı yola nəzər yetirdikdə, öz-özümə fikirləşirəm ki, üzü padoş bax, buna deyərlər. Qınamayın məni, təhqir etmirəm. Sözümün canı var. Belə ki, bəlli olan reallıq budur ki, bu, o Azərbaycan müxalifətidir ki, yarandığı gündən etibarən, mövcud iqtidarla baş-başa gəlməyi bacarmayıb. Ona rəqib və alternativ ola bilməyib. Yəni nə ağıl, nə siyasi resurs, nə də səmimiyyət mövzusunda. Bu günə qədər müxalifət adına sıralanan bütün biabırçı, rüsvayçı məğlubiyyətlərin də səbəbi, məhz budur. Durum dünən də dəyişməyib, bu gün də, sabah da dəyişməyəcək. Və dağıdıcı müxalifətin eyni adlı estafeti bu gün də davam etməkdədir. Özü də ünvansız bir yol boyunca. Və bu gün bu başıpozuq satqın dağıdıcı düşərgə "liderləri" çətinə düşəndə də, başlayırlar hansısa əndrəbadi bir qurum yaratmağa və başlayırlar həmin ölü qurumda baş girləməyə. Bunu görə-görə gəlmişik: "SİDSUH"-dan tutmuş ta üzü bəriyə qədər, məsələn, "Milli Şura"ya qədər...

Səbəb yalnız budur!

Bəli, artıq bir şey qalmayıb. Odur ki, adı ciddi olmayan qurumların fəaliyyətindən də ciddi nəsə gözləməyə dəyməz. Ayrıca düşünmək olar ki, adlarındakı hərf sayı üzvlərinin sayından daha çox olan partiyalar daha yaxşı olar ki, yarı yoldan qayıdıb abırları varsa, qısılsınlar abırlarına. Qısıla da bilməzlər. Çünki AXCP və Müsavat özlərini "cırtdan" partiyaların böyük və ağır cüssəli "abiləri" hesab edirlər. Prosesə bu qədər tez qoşulmağı da olmayan reputasiyalarına sığışdırmırlar, vəssalam. Səbəb yalnız budur!

Qarşıda hələ Əli Kərimlinin, Cəmil Həsənli başda olmaqla, "Milli Şura"ilə uzun müddətdən bəri çəkilməmiş qalan haqq-hesab var...

Beləliklə, deyə bilərik ki, məğlubiyyət müxalifətimizin alın yazısıdır. Onların qabiliyyətinə, istəyinə, səmimiyyətinə və gücünə tam adekvat olan bir yekundur. Adamların 25 illik məğlubiyyət immuniteti var. Artıq onlarda arsızlıq mərhələsinə də keçid var.

Ən gülünc məsələ ondadır ki, 5-10 nəfəri ətraflarına toplayan kimi, həyasızcasına deyirlər ki, "bu müxalifətin kütləviliyidir". Həyasızlığın son həddi buna deyilir. Bu yerdə soruşmaq lazımdır, ay boş bardağı dolu çanağa vuran ölü müxalifət, bunların "kütləvi" olması üçün adam da yoxdur axı. Sual olunur, hansı kütlədən və ya hansı kütləvilikdən söhbət gedir? Bir müddət öncə, keçirmiş olduqları mitinqlərin fiaskosunu, rəzalətini nə tez unutdular? Axı, siz o müxalifətsiniz ki, bu günə kimi həm təşkilatlarınız, həm ideyalarınız, fikirləriniz, məramlarınız da pərakəndədir. Və elə zənn edirsiniz ki, çənəyə güc verməyin bir xeyri olar. Ay bədbəxtlər 25 ildir ki, çənəyə güc verirsiniz, bir xeyri olub ki?.. Yazıqdır bu çənə...

25 ildir ki, bu yolu qət edirsiniz, nə əldə etmisiniz? Nifrət. Mənəviyyatsız və əxlaqsız erməni qulbeçələri olan Əli Kərimliyə, İsa Qəmbərə, Cəmil Həsənliyə, Arif Hacılıya və... yaraşan da elə budur. Bir də, bu fərdlər öz abırına hakim olmasa da, Azərbaycan qanunları öz göstərişlərinə hakimdir və əsla, hansısa siyasi qüvvə üçün xüsusi ayrıcalıqlar tətbiq etməyib. Hər bir siyasi qüvvənin mövcudluğuna da, fəaliyyətinə də bərabər təminatlar yaradıb. Bundan sonra da həmin rentabelliyi qoruyub-saxlayacaq. Amma bugünkü dağıdıcı müxalifət "babam mənə kor dedi, gəlib-gedəni vur dedi" kəlamına arxayın olduğu kimi, hansı oyunlar çıxardıb, həmin qanunlar üzərində hansı təhrifləri etmək üçün çənəsinə güc verəcəksə, bax, bu, artıq tam başqa bir söhbətin mövzusudur. Ancaq onu da demək lazımdır ki, bu əxlaqsızlar o qədər iblis xislətli, zəhərli ilanlardır ki, məqsəd və amal, hər nə olursa-olsun, məqamı gələndə, fürsət düşəndə, öz zəhərlərini tökəcəklər, nifrətlərini büruzə verəcəklər. Ancaq 25 illik məğlubiyyət immuniteti olan bu bədbəxtlər istəklərinə çata biləcəklərmi? Bax, bunu zaman göstərəcək.

***İnsan hüquqlarının səmərəli müdafiəsi sahəsində fəaliyyətini daha da gücləndirmək məqsədi ilə Müvəkkil nüfuzlu beynəlxalq qurum və təşkilatlarla əməkdaşlığını davam etdirmişdir.***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Azərbaycan İnsan Hüquqları Müvəkkilinin beynəlxalq əlaqələri

Müvəkkil BMT-nin İnsan Hüquqları Şurasının 2015-ci ilin mart ayında baş tutmuş 28-ci sessiyasında "Əlilliyi olan şəxslərin hüquqları ilə bağlı interaktiv müzakirələrdə" iştirak etmiş, təqdim etdiyi bəyanatında insan hüquqlarının ayrılmaz tərkib hissəsini təşkil edən əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsində aidiyyəti dövlət qurumları, QHT, vətəndaş cəmiyyəti ilə birgə fəaliyyət göstərdiyini, onların problemlərinin diqqət mərkəzində saxlanıldığını bildirmişdir. Bu bəyanatın video-çarxı BMT-nin rəsmi internet səhifəsində yerləşdirilmiş, həmçinin, sessiyaya "İnsan hüquqları üzrə milli siyasət" mövzusu üzrə yazılı bəyanat da göndərilmişdir.

Müvəkkil BMT-nin Qadınlara Qarşı Ayrı-seçkiliyin Bütün Formalarının Ləğvi Komitəsinə hökumətin növbəti hesabatına əlavə hesabatını göndərmiş, qadınlara qarşı zorakılığın, ayrı-seçkiliyin aradan qaldırılması ilə bağlı ölkədə görülən işlərlə yanaşı, bu sahədə işin daha da təkmilləşdirilməsi istiqamətində təkliflər də vermişdir.

Azərbaycanın Universal Dövri İcmal üzrə ikinci dövri hesabatına dair aralıq məruzənin hazırlanması məqsədilə tövsiyələrlə bağlı Müvəkkil tərəfindən Xarici İşlər Nazirliyinə arayış təqdim edilmişdir.

BMT-nin İşgəncələrə qarşı Komitəsinin 56-cı sessiyası çərçivəsində BMT-nin "İşgəncələr və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növləri əleyhinə" Konvensiyası üzrə Müvəkkilin təqdim etdiyi əlavə hesabat, daha sonra QHT-lərin hesabatları və respublikanın dördüncü dövrü məruzəsi dinlənilmişdir.

Avropa Şurası çərçivəsində fəaliyyət göstərən İrqçiliyə və Dözümsüzlüyə qarşı Avropa Komissiyasının iclaslarında iştirak edən Müvəkkil təsisatın ayrı-seçkiliklə mübarizə sahəsində gördüyü işlər barəsində məlumat vermişdir.

Avropa İttifaqının dəvəti ilə Türkmənistanın paytaxtı Aşqabad şəhərində Avropa İttifaqının Mərkəzi Asiya üçün Hüququn Aliliyi təşəbbüsü çərçivəsində "Türkmənistanda İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Təsisatının yaradılması" mövzusunda təşkil edilmiş tədbirdə beynəlxalq ekspert qismində iştirak edən Müvəkkil "Ombudsmanın səlahiyyətləri haqqında məlumatlılığını artırılması və onun dövlət qurumları və ictimaiyyətlə əlaqələri" mövzusunda məruzə etmiş, təsisatın çap məhsulları sərgilənmişdir.

Müvəkkilin nümayəndəsi BMT-nin Milli İnsan Hüquqları təsisatları (MİHT) ilə iş üzrə Beynəlxalq Əlaqələndirmə Komitəsinin dəstəyi ilə Belçikanın paytaxtı Brüssel şəhərində keçirilən Avropa İnkişaf Günləri ilə bağlı tədbir çərçivəsində keçirilmiş sessiyalarda "Milli İnsan Hüquqları İnstitutları, Vətəndaş Cəmiyyəti Təsisatları və Milli Strategiya" mövzusuna həsr olunmuş İşçi Qrupunun iclasında çıxış etmişdir.

Müvəkkilin nümayəndəsi Vyanada ATƏT-in Serbiya sədrliyi və Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun birgə təşkilatçılığı ilə "Xüsusi diqqətin birləşmə azadlığına yönəldilməsi ilə dinc toplaşma və birləşmə azadlıqları" mövzusunda keçirilən ATƏT-in Əlavə İnsan Ölçüsü üzrə Görüşündə, habelə, Varşava şəhərində ATƏT-in İnsan Ölçüsü üzrə İllik Görüşündə və "ATƏT məkanında insan hüquqlarının təşviqi və müdafiəsində milli insan hüquqları institutlarının rolu" mövzusunda ATƏT-in İnsan Ölçüsü Seminarında və Xüsusi İnsan Ölçüsü Komitəsinin Vyana şəhərində "Nifrət zəminində törədilmiş cinayətlər" mövzusunda keçirilən iclasda çıxış etmiş və Müvəkkilin təkliflərini diqqətə çatdırmışdır.

Müvəkkilin və əməkdaşların xarici ölkələrə işgüzar səfərləri zamanı bütün beynəlxalq tədbirlərdə ölkə Prezidentinin sülh təşəbbüsləri, Azərbaycan həqiqətləri, xüsusilə, Ermənistan silahlı qüvvələri tərəfindən Xocalı şəhərində törədilmiş soyqırımı, habelə, Dağlıq Qarabağda və onun ətraf rayonlarında azərbaycanlılara qarşı zorakılıqlar barədə geniş məlumat vermiş, Azərbaycanın haqq işinin dəstəklənməsi məqsədilə dünya ictimaiyyətinə çağırışlar olunmuş, bu faciələri özündə əks etdirən ədəbiyyatlar, bəyanatlar və disklər paylanmışdır.

Müvəkkil UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının dəstəyi ilə Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 20 illiyinə, BMT-nin və UNESCO-nun 70 illiyinə həsr olunmuş "Konstitusion hüquq və azadlıqların təmin olunmasında ölkədaxili və beynəlxalq təşkilatların əməkdaşlığının rolu" mövzusunda Ombudsmanların XIII Bakı Beynəlxalq Konfransını keçirmişdir.

Müvəkkilin fəaliyyətində ənənəvi olan bu beynəlxalq toplantıya BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının Cənubi Qafqaz ölkələri üzrə böyük müşaviri Vladimir Şkolnikov, Beynəlxalq Ombudsmanlar İnstitutunun prezidenti, Namibiya Ombudsman John Walters və həmin institutun baş katibi, Avstriya Ombudsmanı Gunther Krauter qatılmışlar. Konfransda Avropa, Asiya, Afrika ölkələrindən, Avstriya, Sloveniya, Xorvatiya, Rumıniya, Türkiyə, Misir, Pakistan, Namibiya, Rusiya Federasiyasının subyekti olan Saratov vilayəti, habelə Moldova, Özbəkistan və Qazaxıstandan gələn Ombudsmanlar, onların nümayəndələri, insan hüquqları üzrə beynəlxalq ekspertlər, tanınmış hüquqşünas alimlər iştirak etmişlər.

Müvəkkil Türkiyə İnsan Hüquqları Komitəsinin sədri Hikmet Tüleni və həmin komitənin İdarə Heyətinin üzvü Mehtap Karaburçak Tuzcunu, bu ölkənin Ombudsmanı Mehmet Elkatmışı, Namibiyanın Ombudsmanı, Beynəlxalq Ombudsmanlar İnstitutunun prezidenti Con Robert Voltersi, Avstriyanın Ombudsmanı, Beynəlxalq Ombudsmanlar İnstitutunun Baş katibi Gunther Krouteri və həmin institutun direktoru Ulrike Orishoferi, Xorvatiyanın Ombudsmanı Lora Vidoviçi, Misirin İnsan Hüquqları üzrə Milli Şurasının prezidenti Mohamed Fayeki, Özbəkistan Ali Məclisinin Ombudsmanı Uluğbəy Muhəmməliyevi, Sloveniyanın Ombudsmanı Vlasta Nusdorteri və onun müavini Jerney Rovşeki, Pakistanın Federal Sığorta Ombudsmanı Əzhar Əli Faruqini, Rumıniya Ombudsmanının müavini İoncl Opreanı, Rusiyanın Saratov vilayətinin Ombudsmanı Tatyana Juriki, Qazaxıstan Milli İnsan Hüquqları Mərkəzinin rəhbəri Vyaçeslav Kalyujini, Moldova İctimai Palatasının prezidenti Aurelia Qriqoriunu və həmin palatanın icraçı direktoru Dumitru Xaritonovu, habelə, Pakistanın ölkəmizdəki səfiri Xalid Usman Qaiseri, Amerika Birləşmiş Ştatlarının səfiri Robert Sekutanı, Norveç Krallığının səfiri Bord İvar Svendseni və səfirliyin birinci katibi Marko Soldiçi, BMT-nin rezident-əlaqələndiricisi Antonius Bruku, UNİCEF-in ölkəmizdəki nümayəndəliyinin rəhbəri Andro Şilakadzeni və onun müavini xanım Nafisa Bintc Shafiqi, eyni zamanda, BMT-nin İşgəncələrin Qarşısının Alınması üzrə Alt Komitəsinin nümayəndə heyətinin rəhbəri Aişə Şujun Muhamməd və onu müşayiət edən həmin qurumun üzvlərinin, BMT Əhali Fondunun Türkiyədəki nümayəndəsi, Azərbaycan, Ermənistan və Gürcüstan üzrə ölkə direktoru Karl Kulessanı, Avropa İttifaqının İnsan Hüquqları üzrə xüsusi nümayəndəsi Stavros Lambrinidisin rəhbərlik etdiyi nümayəndə heyətini, Avropa Şurası Nazirlər Komitəsinin Demokratiya üzrə Məruzəçi Qrupunun rəhbəri Aleksandr Gesseli və onun rəhbərlik etdiyi nümayəndə heyətini, Avropa Şurasının Faktaraşdırıcı Missiyasının nümayəndə heyətinin üzvləri Tanja Rakvusici və John MakAlleni, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun direktoru Mixael Linki və onun xüsusi müşaviri Yan O.Haukassı, habelə, İndoneziyanın İnsan Hüquqları üzrə Milli Komissiyasının sədri Nur Xolisi, bu qurumun məsul əməkdaşı Elfansuri Xeyrahı və "Jakarta Post" qəzetinin nümayəndəsi Virmalla Ancayahı, Gürcüstanın Konstitusiya Məhkəməsinin hakimləri xanım Lali Papiaşvili və Otar Sicinavanı, Avstriyanın Sosial İşçilər Assosiasiyasının icraçı direktoru, Azərbaycanda Sosial Xidmət Təminatının İnkişafı üzrə Tvinninq layihəsinin daimi müşaviri, ahıllar üzrə ekspert Herbert Paulişini, həmçinin, fransalı tədqiqatçı, yazıçı-jurnalist Jean Louis Gouraudu qəbul etmiş, insan hüquqlarının müdafiəsi məsələləri üzrə qarşılıqlı fikir mübadiləsi aparılmış və əməkdaşlıq perspektivləri müzakirə edilmişdir.

Müvəkkil, həmçinin, "Hüquqi-demokratik dövlət: nəzəriyyə və təcrübənin aktual problemləri" mövzusunda Bakı şəhərində keçirilmiş III Beynəlxalq Elmi Konfransın iştirakçısı olan beynəlxalq miqyasda tanınmış bir qrup hüquqşünas alimləri, habelə, Azərbaycan Respublikasının Milli Məclisinə keçirilən seçkiləri müşahidə etmək məqsədilə ölkəmizdə səfərdə olan Lyuk Simpkinsin rəhbərlik etdiyi Avstraliya Parlamentinin üzvlərindən ibarət nümayəndə heyətini də qəbul etmişdir.

Müvəkkilin aparatında, eyni zamanda, Beynəlxalq İnsan Hüquqları Federasiyasının və İşgəncələrə Qarşı Dünya Təşkilatının nümayəndə heyəti, Yehovanın Xristian Şahidləri Avropa Assosiasiyasının nümayəndələri, din azadlığı üzrə müşavir Mark Hansen, həmin assosiasiyanın rəhbər komitəsinin sədri Vasiliy Kalin və bu dini təriqətin yerli icmasının təmsilçiləri, ATƏT-in İnsan Alveri ilə Mübarizə üzrə xüsusi nümayəndəsi və əlaqələndiricisi Mədinə Yarbuzinovanın rəhbərlik etdiyi nümayəndə heyəti, ofisin ölkə səfərləri üzrə əməkdaşı Muriel Ktvino, Beynəlxalq Miqrasiya Təşkilatının ekspertləri Hilkka Bekerı və Katarina Lukofer, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Cənubi Qafqaz üzrə regional nümayəndəsi xanım Simone Volken və həmin qurumun ölkəmizdəki nümayəndəliyinin rəhbəri Daq Siqurdson, Avropa İttifaqının ədliyyə üzrə ekspertləri, habelə, Azərbaycan Hökumətinin Dünya Bankı ilə birgə maliyyələşdirdiyi və Ədliyyə Nazirliyinin həyata keçirdiyi "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsi çərçivəsində cəlb olunmuş ekspert Valid Madhon qəbul edilmişlər.

2015-ci ildə nəşr olunmuş, Müvəkkilin beynəlxalq əlaqələr sahəsində gördüyü işləri, əldə etdiyi nailiyyətləri əks etdirən "İnsan hüquqları sahəsində beynəlxalq əlaqələr" kitabında təsisatın yarandığı vaxtdan etibarən Müvəkkilin İnsan Hüquqları sahəsindəki beynəlxalq fəaliyyətinə, bir çox nüfuzlu beynəlxalq qurumlarla səmərəli əməkdaşlıq əlaqələrinə, insan hüquqları sahəsində beynəlxalq təcrübənin öyrənilməsinə, habelə, ölkədə bu sahədə aparılan uğurlu islahatların beynəlxalq ictimaiyyətə çatdırılmasına dair məlumatlar öz əksini tapmışdır.

***VAHİD ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

SƏS

Son səhifə 24 oktyabr



# Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev növbəti səyyar qəbulunu keçirib



Dünən ölkə Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyəsinə uyğun olaraq, təşkil olunan növbəti səyyar görüş Daşkəsən rayon Əhmədli kənd inzibati-ərazi vahidliyinə daxil olan Dardərə kəndində keçirilib. Dardərə kəndində təşkil olunan görüşdə rayon icra hakimiyyətinin məsul işçiləri, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilat rəhbərlərinin iştirak etdiyi tədbirdə çıxış edən rayon rəhbəri Əhəd Abıyev çıxış edərək, dövlət başçısının yürütdüyü məqsədyönlü siyasəti, əhalinin maddi rifah halının, sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində verdiyi tapşırıq və tövsiyələri, Birinci vitse-prezident Mehriban Əliyevanın vətəndaşlara göstərdiyi diqqət və qayğını böyük minnətdarlıq hissi ilə qarşıladıqlarını bildirib.

Rayon rəhbəri dövlət başçısının əhalinin maddi və sosial rifah halının yaxşılaşdırılması məqsədilə iqtisadi islahat paketinin icrası ilə bağlı imzaladığı mühüm fərman və sərəncamlardan və həmin sərəncamlardan irəli gələn vəzifələrin layiqincə yerinə yetirildiyini söyləyib: "İstər minimum əməkhaqqının 180 manatdan 250 manata, istər minimum pensiyanın 160 manatdan 200 manata çatdırılması, istər təhsil, istərsə də digər sahələrdə çalışan işçilərin əməkhaqlarının, müvafiq olaraq, 20 və 40 faiz artırılmasını ölkə vətəndaşlarının rifah halının yaxşılaşdırılması istiqamətində atılan ən uğurlu addımlardır".

İcra başçısı rayonda regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına əsasən, həm rayon mərkəzində, həm də kəndlərdə geniş abadlıq-quruculuq işləri aparıldığını, ən ucqar dağ kəndlərinə ardıcıl şəkildə müasir yolların çəkilməsi, yeni məktəb binalarının tikintisi, qazlaşdırılma və elektrik təchizatının, irimiqyaslı su və kanalizasiya layihəsinin icrası sahəsində işlərin davam etdirildiyini bildirib. Qeyd edib ki, bütün bunlar ölkə başçısı İlham Əliyevin rayon əhalisinə göstərdiyi diqqət və qayğısının bariz nümunəsidir.

Görüşdə vətəndaşların müraciətləri dinlənilib, qaldırdıqları məsələlər operativ şəkildə araşdırılaraq həlli ilə bağlı tədbirlər müəyyənləşdirilib. Səyyar qəbulu razılıqla qarşılayan sakinlər çıxışlarında əvvəllki görüşlər zamanı qaldırılmış məsələlərin həlli ilə bağlı görülmüş işlərə görə də minnətdarlıq ifadə ediblər.

**R.KAMALQIZI**

# YAP Pirallahı rayon təşkilatının 4 saylı Texniki-Quraşdırma Bölümü ilk partiya təşkilatında iclas keçirilib

Dünən Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının 4 saylı Texniki-Quraşdırma Bölümü ilk partiya təşkilatında iclas keçirilib. İclası giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının aparat rəhbəri İlqam Əskərov Yeni Azərbaycan Partiyasının böyük siyasi güc kimi cəmiyyətimizdəki mövqeyinin gündən-günə artdığını qeyd etdi. Bildirib ki, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan Azərbaycanın inkişaf konsepsiyası bu gün Prezident İlham Əliyev tərəfindən uğurla və yüksək səviyyədə həyata keçirilir.

İclasda təşkilati məsələlərə baxılıb. 4 saylı Texniki- Quraşdırma Bölümü ilk partiya təşkilatının idarə heyəti üzvləri və partiya fəallarının təklifi ilə Hüseynov Ramiz Hüsən oğlunun namizədliyi irəli sürülüb. Səsvermə yolu ilə sədr seçildikdən sonra Ramiz Hüseynov iclas iştirakçılarına təşəkkürünü bildirərək, ilk partiya təşkilatında işin keyfiyyətinin artırılması üçün səylə çalışacağına söz verdi.

4 saylı TQB ilk partiya təşkilatının fəaliyyəti ilə bağlı İ.Əskərov mövcud olan nöqsanlarla bağlı iradlarını bildirərək, partiya sıralarına yeni üzvlərin qəbulunda savadlı, perspektivli gənclərə üstünlük verilməsini tövsiyə etdi. İqtisadi sahədə əldə olunan nəticələr Prezident İlham Əliyevin xalqın dəstəyinə söykənən, regionların davamlı sosial-iqtisadi inkişafını və bu-



nunla da, vətəndaşlarımızın rifahının yaxşılaşdırılmasını təmin edən siyasətinin müdrikliyinə və uzaqgörənliyinə, hədəflərimizin əzəmətinə və reallığına inandırıcı sübutdur. İdeoloji işin səmərəliliyinin artırılması ilə bağlı son illərdə sosial şəbəkələrdə aktivlik nümayiş olunur.

İclasın sonunda 23 dekabr 2019-cu il tarixində keçiriləcək bələdiyyə seçkilərində partiya üzvlərinə fəallıq nümayiş etdirməsi tövsiyə olundu.

**RÖVŞƏN**

# Qaradağ rayonunda "Dini radikalizmə qarşı mübarizə yolları" mövzusunda dəyirmi masa keçirilib



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Qaradağ rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə Bakı şəhəri Qaradağ rayonunda "Dini radikalizmə qarşı mübarizə yolları" mövzusunda rayon ərazisində fəaliyyət göstərən din xadimləri arasında dəyirmi masa keçirilib. Tədbiri giriş sözü ilə açan Qaradağ RİH başçısı aparatının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini, dini qurumlarla işin təşkilatçısı Yusif Nəsibov insanlar arasında sağlam dini biliklərin formalaşmasında din xadimlərinin rolunun vacibliyindən



bəhs edib.

Daha sonra çıxış edən DQİDK-nın Bakı şəhəri üzrə şöbəsinin müdir Anar Kazımov insanları dini radikalizmdən, radikal dini qrupların təsirindən kənar saxlamaq üçün islam dinini düzgün şəkildə, olduğu kimi təbliğ etməyin əhəmiyyətini vurğulayıb, dini radikalizmlə mübarizədə ənənəvi islamın dayaqlarını möhkəmləndirmək, insanlar arasında milli-mənəvi dəyərlərə bağlılıq elementlərini artırmağın əhəmiyyətindən bəhs edib.

Tədbir müzakirələrlə davam etdirilib, icma sədrləri və din xadimləri fəaliyyətləri barədə qısa məlumat veriblər.

**R.HÜSEYNOVA**

## ELAN

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Nağıyeva Gülnar Rafiq qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**